

Milli azadlıqdan şirin nemət yoxdur!

# Naxçıvandan Bakıya...

## 9 iyun - müstəqilliyin əbədiliyinə inamın tarixi!

### Xalqa Azərbaycanı xilas edəcək lider - inam və etimad ünvanı lazım idi...



Bax səh. 4

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
8 iyun 2024-cü il, şənbə
№ 102 (6688)
Qiyməti 60 qəpik

# Prezidentdən mesaj:

## Ermənistanın konstitusiyası dəyişməzsə, sülh sazişinin bağlanması mümkün deyil



Bax səh. 2

# Türk dünyası üçün tarixi fürsətlər

Bax səh. 3

## Cənubi Qafqazın rifahı üçün...

Cənubi Qafqazda sülhün vacibliyi demək olar ki, bütün parametrlər üzrə xüsusi önəmini nümayiş etdirir. İstər siyasi-hərbi reallıqlar, istərsə də iqtisadi və ticari imkanlar sülh prosesinin yekunlaşmasını və qısa zamanda bölgənin təhlükəsizlik seqmentinin ən yüksək səviyyədə formalaşmasını zəruri edir. Beynəlxalq münasibətlərin yeni düzəninin formalaşdığı hazırkı zaman kəsiyində ilk növbədə Cənubi Qafqazda əmin-amanlığın bərpa edilməsi əsas şərtlərdən biri kimi çıxış edir. Şərq-Qərb, Şimal-Cənub tranzit daşıma xəttinin ən əsas və ən vacib kəsişmə nöqtəsi sayılan Cənubi Qafqaz yeni ticari trendin nüvəsinə çevrilməkdədir.

Azərbaycan dövlətinin milli...

Bax səh. 4



## Şuşa Zirvəsi - TDT tarixində yeni mərhələ...

Bax səh. 2

## Sosial fərq aradan qalxır...

Milli Məclisin plenar iclasında "Əmək pensiyaları haqqında qanun" layihəsinə dəyişikliklər ikinci oxunuşda qəbul edilib. Özündə dörd istiqaməti ehtiva edən dəyişikliklərdən biri də hərbçilərlə bağlıdır. Yeni dəyişikliklərə əsasən, hərbi xidmət dövründə xəstələnmə səbəbindən sağlamlıq imkanları 81-100 faizi məhdudlaşan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, əlilliyi olan hərbi qulluqçulardan xidməti vəzifələri yerinə yetirməklə bağlı olmayan əlilliyi olan şəxslərə orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə müvafiq təminat xərcliyinin - 60 faizi, orqanizmin funksiyalarının 61 - 80 faiz pozulmasına...

Bax səh. 5

# Büdcənin gəlir və xərcləri artırıldı

Bax səh. 5

## Birgə bəyanat

Beynəlxalq təşkilatlar Ermənistandan Üzeyir Hacıbəylinin əsərlərinin mənimsənilmə hallarının aradan qaldırılmasını tələb etməlidir!

Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsinin və Azərbaycan musiqi irsinin digər nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi ilə bağlı birgə bəyanat yayıb.

Bəyanatda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsi guya erməni bəstəkarı Arno Babacanyanın müəllifi olduğu "Vaqarşabat rəqsi" adı altında "Youtube"...

Bax səh. 4

## ÜTT-yə üzvlüyün bir addımlığında...

Prezident İlham Əliyev Ümumdünya Ticarət Təşkilatının (ÜTT) baş direktoru Nqozi Okonyo-İvealanı qəbul edərkən ölkəmizin bu quruma daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparılıb. Eləcə də ÜTT-nin baş direktoru Nqozi Okonyo-İveala İqtisadiyyat Nazirliyində olub və keçirilən görüşdə ölkəmizdə əlverişli işgüzar mühit və investorlar üçün yaradılan imkanlar barədə məlumat verilib, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, o cümlədən ÜTT-yə üzvlüklə bağlı görülən işlərin əhəmiyyəti vurğulanıb. Azərbaycanın bu təşkilata daxilolma prosesi ilə bağlı atdığı addımlar Nqozi Okonyo-İvea...

Bax səh. 5

## NATO müharibəyə qoşulacaqmı?

Avropa İttifaqı (Aİ) və Şimali Atlantika Alyansı (NATO) daxilində müxtəlif məsələlərə münasibətdə fikir ayrılığı dərinləşir. Bu, xüsusilə də sonu görünməyən Rusiya-Ukrayna müharibəsinə münasibətdə daha qabarıq şəkildə nəzərə çarpır. Macarıstanın fərqli yanaşması buna misaldır. Bu ölkə rəsmiləri NATO-nun Rusiya-Ukrayna müharibəsində mümkün iştirakına etirazlarını bildirirlər. Bu günlərdə Macarıstanın Baş naziri Viktor Orban "Mandiner" jurnalına müsahibəsində ölkəsinin fərqli yanaşmasını növbəti dəfə diqqətə çatdırıb.

Rusiya-Ukrayna müharibəsinin ilkin fazasında Avropa İttifaqına və NATO-ya...

Bax səh. 6

## Gilənar qırğını

Çexov təkcə nəsrdə yox, dramaturgiya sahəsində də inqilab eləmiş yazıçıdır. O, Şekspirdən sonra pyesləri ən çox səhnələşdirilən dramaturq sayılır. Şekspirin otuz yeddi dram əsərinin müəllifi olduğunu, Çexovunsa dünyada əsasən dörd pyeslə tanındığını nəzərə alsaq, onu siyahıda Şekspirdən də qabağa keçirmək olar.

"Yeni dram"ın İbsendən başlanan yolu Çexovda zirvəyə çatıb. O, klassik dramaturgiyanın ta antik dövrdən bəri qüvvədə olan bütün ehkamlarını, kanonlarını söküb dağıdıb, yerində yenilərini yaradıb. Onun pyesləri dünya dramaturgiyasının, teatr sənətinin sonrakı inkişafına, o cümlədən absurd teatrın yaranmasına həlledici təsir göstərib. Möhtəşəm dördlüyün ("Qağayı"...

Bax səh. 7

# Fransaya olar, Gürcüstana yox?





Bax səh. 6



## Erməni kilsəsi vergi verəcək

Bax səh. 7



# Prezidentdən mesaj:

## Ermənistanın konstitusiyası dəyişməzsə, sülh sazişinin bağlanması mümkün deyil

Ermənistan Azərbaycanla münasibətlərin normallaşması, sülhün imzalanması üçün daha çox maraqlı olmalıdır. Ortadakı obyektiv səbəblərlə (iqtisadi geriləmənin aradan qalxması, siyasi böhranın sonlanması, sosial çətinliklərdən yaxa qurtarmaq) yanaşı, subyektiv səbəblər (Ermənistanın suveren dövlət olaraq özünü siyasi münasibətlər sistemində təsdiqləməsi, ciddi şəkildə sərhədlərinin müəyyənləşməsi və tarixdə ilk dəfə özünü dövlət kimi təsbit etmək imkanının yaradılması) də kifayət qədərdir. Qeyd edildiyi kimi, Azərbaycanın təqdim etdiyi sülh şərtləri beynəlxalq hüquqa söykənməklə, mövcud həqiqətləri əks etdirməklə yanaşı, Ermənistanın özünü real dövlət olaraq təsdiqləməsi üçün yeni zəmin yaradır - burada yer alan müddəalar Ermənistanın qlobal arenada suveren dövlət kimi yer tapması üçün şəraitin formalaşdırılması deməkdir. Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması məsələsi daha çox Ermənistan üçün vacib şərt kimi önə çıxır - çünki bütün dünya, aparıcı beynəlxalq təşkilatlar, BMT və digər təsisatlar Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edən sənədlər qəbul edib, onu təsdiqləyiblər. Ermənistanın Azərbaycan ilə sülh bağlaması, sərhədlərini müəyyənləşdirməsi isə rəsmi İrəvanın dövlət kimi tanınması üçün ilkin şərt rolunu oynayacaq. Sülh şərtlərində digər əsas məsələlər kimi önə çıxan dövlət sərhədinin delimitasiyası və demarkasiyası artıq reallığa çevrilir. Bu isə özlüyündə digər şərtlərin - diplomatik münasibətlərin qurulması, o cümlədən nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulmasını, ən əsası isə dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması şərtini aktuallaşdırır.

### Bizə qarşı ərazi iddiaları olduğu bir vaxtda...

Bu məsələ həm BMT-nin təməl prinsiplərinə, həm də digər beynəlxalq qanunvericiliyə əsaslanır. Ermənistan Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, Azərbaycana qarşı əsassız ərazi iddialarından rəsmən əl çəkməlidir. Eyni zamanda, İrəvan imzalanacaq sülh üçün münbit zəminin formalaşması üçün bunu rəsmiləşdirməlidir - 200 ilə yaxındır ki, Azərbaycana qarşı əsassız torpaq iddiaları irəli sürən, işğal siyasəti aparan Ermənistan artıq bu iddialarından geri durmalıdır. Onlar anlamalıdırlar ki, bu cür xəstə təfəkkürə söykənən əsassız iddialar iki xalqın arasında münasibətlərin kəskinləşməsi ilə yanaşı, normal qonşuluq münasibətlərinin yaranmasına da mane olur.

Bunun üçün isə ilkin şərt Ermənistan konstitusiyasında dəyişikliklərin edilməsidir. Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən bildirib ki, bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim heç vaxt heç bir ölkəyə, o cümlədən Ermənistana qarşı ərazi iddiamız olmayıb və yoxdur: “Onların bizə qarşı ərazi iddiaları var idi. Məhz onların konstitusiyasına sonradan daxil olan müstəqillik bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları var. Məhz onların ideologiyasında, siyasətində və ictimai diskursunda Türkiyəyə qarşı ərazi iddiaları davamlı olaraq eşidilir. Azərbaycanlılar və türklər məhz onların cəmiyyətində kiçik yaşlarından düşmən obrazında təqdim edilirlər. Millətçilər və hərbi cinayətkarlar tərəfindən zəhərlənən onların cəmiyyətidir. Ona görə də onlar bu məsələlərlə məşğul olmalıdırlar. Təbii ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması, sadəcə, mümkün deyil. Biz bu sualı qaldıranda mən dedim və yenə də demək istəyirəm, ona görə yox ki, biz onların daxili işlərinə qarışırıq, qətiyyən yox, amma bu, bizə aiddir. Onların bizə qarşı ərazi iddiaları olduğu bir vaxtda biz Ermənistanla sülh sazişi bağlaya bilmərik”.

### Türkiyəyə və Azərbaycana qarşı ərazi iddiası irəli sürmək intihardır

Söhbət ondan gedir ki, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında “Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli “Ermənistan SSR-ə yenidən birləşmək haqqında” birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Türkiyəyə qarşı iddialara gəldikdə isə bu ölkənin gerbində yer alan yersiz iddia ilə yanaşı, konstitusiyada 1915-ci ildə Osmanlı dövlətində qondarma “erməni soyqırımı”nın beynəlxalq səviyyədə tanınmasına nail olunması da vurğulanır. Eyni zamanda, bu sənəddə Ermənistanın 1918-ci ildə qurulan Ermənistan dövləti ilə əlaqəsinə də toxunulmur. Yəni Ermənistan bölgədə özünü suveren və müstəqil dövlət kimi sübut etmək, qonşuları ilə normal münasibət yaratmaq, bölgənin bir parçasına çevrilmək istəyirsə, əsas sənədindəki bu çatışmazlıqları aradan qaldırmalıdır. Ermənistanın Azərbaycana və ya Türkiyəyə qarşı hansısa bir “iddia” irəli sürməsi yersizdir - çünki bu gün Ermənistanın da yerləşdiyi bölgənin siyasi-iqtisadi təhlükəsizliyinin məsuliyyəti bu iki qardaş ölkənin üzərindədir. Ermənistanın özünün əsassız və yalan fikirlərində “israr” etməsi isə İrəvan üçün yalnız faciə gətirə bilər. Prezident İlham Əliyev bildirib ki, sırf praktiki baxımdan, hətta xəritəyə baxın: “Ermənistan orada hansı yeri tutur, Türkiyə hansı yeri tutur. Sadəcə olaraq, iki ölkənin hərbi potensialını, demoqrafik potensialını, iqtisadi potensialını müqayisə edib sonra Türkiyəyə qarşı ərazi iddiası irəli sürmək intihar etmək deməkdir. Yaxud, 2020-ci və 2023-cü illərin hadisələrindən sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürmək də, ümumiyyətlə, intihara yaxındır. Ona görə də onlar öz ideologiyalarını, cəmiyyətdəki əhvali-ruhiyyəni dəyişməlidirlər. Bu, zaman tələb edir. Onlar revanşizm ideyalarından tamamilə imtina etməlidirlər və biz görürük ki, belə ideyalar təkcə müxalifətdə deyil, iqtidarda da var. Bütün bu məsələlər, təbii ki, aydınlaşdırılmalı və tənzimlənməlidir. Ancaq yenə də demək istəyirəm ki, biz sülh sazişinin bütün bəndlərinin BMT Nizamnaməsinə və beynəlxalq hüquqa uyğun olaraq razılaşdırılması istiqamətində konstruktiv işə sadiqik”.

*P.SADAYOĞLU*

# Şuşa Zirvəsi - TDT tarixində yeni mərhələ...

Dünyada baş verən hadisələr, inkişaf edən proseslər bəzi həqiqətləri göz önünə çıxarır - dünyada cərəyan edən “qütb” və ya “qrup” maraqları savaşı böyük güclərin mənafeyinin qorunmasına xidmət edir. Təəssüfləndirici haldır ki, bəzi məqamlarda özünü dünyanın “hegemoniya ansamblı” sayan bu kimi güclər bəzi məqamlarda beynəlxalq hüququ, ədaləti və demokratik prinsipləri belə özlərinin bu maraq savaşının predmetinə çevrirlər. Bundan çıxış yolu isə milli dövlətlərin öz maraqları uğrunda təmərküzləşməsi, tarixi - irsi bağlılığı, coğrafi yaxınlığı olan ölkələrin vahid ideallar ətrafında birləşməsidir.

Qısa zamanda özünü iqtisadi-siyasi konsepsiyası, ideoloji əsasları olan və ən əsası suveren, milli mənafeyə söykənən prinsiplərə malik təşkilat kimi sübut etməyi bacaran Türk Dövlətləri Təşkilatının əldə etdiyi uğurlar saymaqla bitməz. Bu inkişaf tendensiyasında maddi nailiyyətlərdən daha çox mənəvi nailiyyətlər göz oxşayır - vahid Türk dünyası ailəsi prinsiplərinin inkişaf etdirilməsi, qarşılıqlı maraqların qorunması üçün gücün və imkanların səfərbər olunması, fərqli cəhətlərin və ya coğrafiyaların oturuşmuş siyasi birliklərinə qarşı bütün aspektlərdə müqavimətin yaradılması kimi prioritet hədəflər TDT-nin ali qurum statusunu daha da möhkəmləndirir.

### İlham Əliyev: Bizim ailəmiz Türk dünyasıdır...

### Türk dünyasının birləşməsi istiqamətində böyük səylər...

Türkdilli ölkələrin birliyini mümkün və zəruri edən fundamental amillərin sayı sadalamaqla bitməz. Tarixi bağlara və yeni çağırışlara əsaslanan cəmiyyətlər və dövlətlər bütün müstəvilərdə yaxınlaşmaq niyyətlərini açıq surətdə ortaya qoyurlar. Statistikaya nəzər saldıqda bu amil diqqət çəkir - Türk Dövlətləri Təşkilatı yarandığı zaman onun dörd üzv ölkəsi - Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan olduğu halda, bu gün artıq təşkilatda beş üzv və iki müşahidəçi ölkə var. Özbəkistan 2019-cu ildə TDT-yə üzv olub. Altı Türk dövlətindən beşi bu təşkilatın üzvüdür, Türkmənistan isə müşahidəçi statusuna malikdir. Macarıstan da müşahidəçi qismində təşkilata qoşulub və təşkilatın Macarıstanda da ofisi fəaliyyət göstərir. Beləliklə, bütün Türkdilli və Türkdilli olmayan ayrı-ayrı ölkələr - vahid platformada birləşmək üçün qətiyyətli siyasi iradə ortaya qoyurlar. Siyahıya Şimali Kipr Türk Cümhuriyyəti də qoşulub. Bu birliyin təməlində sağlam və səmimi münasibətlər, müttəfiqlik və strateji anlaşmanın ən yüksək səviyyədə təmin edilməsi kimi real faktorlar dayanır. Aparılan müzakirələr, münasibətlərin inkişafına istiqamətlənən görüşlər isə bu mühiti daha da gücləndirir. Məsələn, iyunun 6-da Bakıda keçirilən TÜRKPA-nın 13-cü plenar iclası bu deyilənləri təsdiqləyir. Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən TÜRKPA-nın növbəti plenar iclasının yaxşı nəticələr verəcəyinə əminliyini ifadə edib. Dövlət başçısı qeyd edib ki, belə toplantılar bir qayda olaraq Türk dünyasının birliyinin təzahürü olur: “Əminəm ki, Bakı toplantısı da istisna olmayacaq. Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı Türk dünyasının gücləndirilməsi, Türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub. Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur. Əslində, bu, ölkəmizin bu istiqamətdəki siyasətini açıq şəkildə büruzə verir. Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir”.



### Şuşa Zirvəsi...

İndiyədək qurumun Almatı, Bişkek, Qəbələ, Bodrum, Astana, Çolpan-Ata, Bakı, İstanbul və digər ünvanlarda olmaqla Zirvə görüşləri uğurla baş tutub. TDT-nin növbəti Zirvə görüşünün (qeyri-rəsmi-red.) cari ilin yayında Türk dünyasının mədəniyyət paytaxtı Şuşada keçirilməsi nəzərdə tutulub. Təbii ki, Şuşa Zirvəsi TDT-nin tarixində mühüm və yeni bir mərhələyə çevrilcək. İlk növbədə, TDT-də sağlam və müttəfiqliyə əsaslanan əlaqələrin formalaşmasına xidmət göstərən nümunə məhz bu şəhərin adı ilə bağlıdır - Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamə 2021-ci ilin iyunun 15-də məhz Şuşada imzalanıb. Azərbaycanın Vətən müharibəsinin simvoluna çevrilmiş, mədəniyyət paytaxtımızın və nəhayət, tariximizin mühüm bir hissəsi sayılan Şuşa Türk dünyasının inteqrasiyası üçün yeni üfiqlər vəd edir. Prezident İlham Əliyev bildirib ki, mənim təşəbbüsümlə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək: “Mən hesab etdim ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etməz. Çünki həm sürətli, yəni davamlı təmaslara ehtiyac var, eyni zamanda, hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər və düz bir aydan sonra Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. O görüşün əsas mövzuları nəqliyyat və iqlimlə bağlı olacaq. Bu da təbiidir. Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi Türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir”.

Bəli, bu Zirvə görüşünün Şuşada baş tutması gələcək üçün, qarşılıqlı əməkdaşlığın inkişafı üçün mühüm əsaslar yaradır. Vurğulandığı kimi, bu şəhər II Qarabağ müharibəsinin simvoludur - hətta erməni işğalı dövründə özünün tarixi simasını qorumuş bu şəhər həm də Türk dünyasının birliyinin güclənməsinə yeni töhfələr qazandıracaq. Prezident İlham Əliyev vurğulayıb ki, Zirvə görüşünün Şuşada keçirilməsi böyük rəmzi məna daşıyır: “Şuşa 4 ilə yaxındır ki, işğaldan azad edilib və orada sürətlə quruculuq-bərpa işləri aparılır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir”.




### Məqsədlərimizə doğru atılan növbəti addım

Qürurverici haldır ki, Türk birliyinin ideyadan reallığa çevrilməsi Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin adı ilə bağlıdır. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə başlanan yol nəticə etibarı ilə hazırda dünyanın sayılan-seçilən, iqtisadi-siyasi əsasları olan bir təşkilatın TDT-nin yaranmasına yol açdı. Eyni zamanda, ötən dövrdə respublikamız TDT-nin müxtəlif tədbirlərinə böyük uğurla ev sahibliyi etdi - Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) katibliyi və Türk Mədəniyyəti və İrsi Fondunun katibliyi Azərbaycanda yerləşir. Ölkəmiz Türk Dövlətləri Təşkilatının təsisçi dövlətlərindən biri kimi daim təşkilat çərçivəsində əməkdaşlığın daha da inkişafı məqsədilə mühüm təşəbbüslərlə çıxış edir. Nümayiş etdirilən iradə, səfərbər olunan siyasi-iqtisadi imkanlar isə vahid Türk ailəsinin sağlam əsaslar üzərində inkişafına xidmət göstərir. Prezident İlham Əliyev qeyd edib ki, Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir: “Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir Zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur”.

*P.SADAYOĞLU*

# Türk dünyası üçün tarixi fürsətlər

Eyni kökdən gələn, oxşar mədəniyyətə və milli-mənəvi dəyərlərə malik olan Türk xalqlarının və dövlətlərinin əlaqələrinin genişlənməsi üçün tarixi fürsətlər yaranıb. Bu prosesdə Azərbaycan özünün geniş imkanlarını təqdim etməklə və güclü siyasi iradə ortaya qoymaqla mühüm rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyev iyunun 6-da TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının sədrinin müavini Marta Matraini qəbul edib. Qəbulda qonaqlar dəvətə görə təşəkkürlərini bildirərək respublikamızın Türk Dövlətləri Təşkilatının (TDT) funksionallığının artmasına, Türk birliyinin möhkəmlənməsinə mühüm töhfələr verdiyinə xüsusi diqqət çəkiblər.

## TÜRKPA-nın yaradılması ideyasına görə Azərbaycan Prezidentinə xüsusi təşəkkür

Qəbulda çıxış edən Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tənzilə Narbayeva Prezident İlham Əliyevin TÜRKPA-nın yaradılması ideyasının öz müsbət nəticələrini verdiyinə xüsusi diqqət çəkib. Prezident İlham Əliyev Azərbaycan-Özbəkistan əlaqələrinin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə edib. Dövlətimizin başçısı iki dost ölkə arasında əlaqələrin möhkəmlənməsini böyük nailiyyət kimi səciyyələndirərək "Əziz qardaşım Şavkat Miromonoviçə ən xoş arzularımı çatdırın, onunla tezliklə görüşməyə ümid edirəm. Bilirsiniz, ilin sonuna qədər bizim görüşlərimiz olacaq - həm mənim səfərim, həm də bilirəm ki, Şavkat Miromonoviç bu ilin noyabrında keçiriləcək iqlim konfransında iştirak etməyi planlaşdırır. Bizim hələ beynəlxalq platformalarda da əlaqələrimiz olacaq. Siz də yaxşı bilirsiniz ki, ölkələrimiz arasında qardaşlıq münasibətləri necə uğurla, deyərdim ki, inanılmaz sürətlə inkişaf edir. Yəqin 7-8 il əvvəl kimsə desəydi ki, biz belə bir əməkdaşlıq səviyyəsinə çatacağıq, buna inananlar az olardı. Bu, əlbəttə ki, böyük nailiyyətdir", - deyə vurğulayıb.

## Dünyada sülhün təmin edilməsi üçün fürsət...

Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş çıxışında Türk dünyasının böyük potensiala malik olduğuna diqqət çəkib. "Orta Asiya dediyimiz Özbəkistandan, Qazaxıstandan başlayan, Qafqazdan Anadoluya, oradan da Avropaya - ta Macarıstana qədər uzanan coğrafiyada təxminən 300 milyon türk yaşayır. Bu, böyük bir potensialdır. Həm insan gücü baxımından, həm də yeraltı, yerüstü sərvətlər baxımından qeyri-adi böyük bir potensialdır. İnşallah, Türk dövlətləri bunu öz aralarında ən doğru şəkildə istifadə edərək yeni dünyada böyük bir güc mərkəzinə çevriləcək. Türk dünyasının önəmli bir güc balansı olması dünyada sülhə əsla təhdid deyil, tam əksinə, dünyada sülhün təmin edilməsi üçün bir imkan, bir fürsətdir", - deyə Numan Kurtulmuş bildirib.

Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirən Prezident İlham Əliyev qardaş ölkənin və onun Lideri Rəcəb Tayyib Ərdoğanın 44 günlük Vətən müharibəsində ölkəmizə güclü mənəvi-siyasi dəstək verdiyini minnətdarlıqla xatırlayıb. Dövlətimizin başçısı əminliyini ifadə edərək bildirib ki, Türk dünyasının gücləndirilməsi, birləşməsi Türk dünyasını, Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirəcək. "Çünki siz də qeyd etdiyiniz kimi, mövcud olan güc mərkəzləri böhran içindədir. Hərəsinin öz böhran çərçivələri var. Bizim isə əksinə, potensialımız gündən-günə çiçəklənir", - deyə dövlətimizin başçısı vurğulayıb.

## Azərbaycan-Qazaxıstan: qarşılıqlı etimada əsaslanan dialoq

Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanov çıxışında Azərbaycanla Qazaxıstan arasında qarşılıqlı əlaqələrin nümunəvi olduğunu bildirib. Bunun səbəblərinə diqqət çəkən Yerlan Koşanov vurğulayıb: "Uğurumuzun açarı Sizinlə Prezidentimiz Kasım-Jomart Kemeleviç Tokayev arasında etimada əsaslanan dialoqdur. Siz artıq iki dəfə Qazaxıstanda olmusunuz, bu il Prezidentimiz dövlət səfərində olub. Nümayəndə heyətimiz çox xoş təəssüratla qayıtdı. Həqiqətən də Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın iclasının keçirilməsi tarixi hadisə oldu. Bu, doğrudan da böyük hadisə idi".

Prezident İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin bir qədər bundan əvvəl Azərbaycana dövlət səfərinin çox uğurlu keçdiyini və yaxşı nəticələrlə yadda qaldığını bildirib. Dövlətimizin başçısı səfər çərçivəsində Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açıldığını xatırladaraq deyib: "Bu, artıq qardaş ölkələrin Füzuli şəhərinə ikinci hədiyyəsidir. Birincisi - ötən ilin avqustunda biz Şavkat Miromonoviçlə Uluqbəy adına məktəbin açılışını etmişdik. Ona görə də indi Füzulidə uşaqlar Uluqbəy adına məktəbə, dərsdən sonra isə Kurmanqazı adına Yaradıcılıq Mərkəzinə gedirlər. Bilirsiniz, bunlar məhz bizim danışdıqlarımız və istədiklərimizdir: qoy xalqlarımız daim bir-birinin dəstəyini hiss etsinlər. Heç də az olmayan vəsaitə başa gələn bu iki çox böyük təhsil ocağı qardaşlarımızın hədiyyəsidir, həmişəlik orada qalacaq".



## Türk dövlətləri ilə əlaqələrin qurulması Macarıstan üçün çox vacibdir

Azərbaycanla Macarıstan arasında əlaqələrin genişlənməsi də məmnunluq doğurur. Macarıstan Milli Assambleyası sədrinin müavini xanım Marta Matrai çıxışında ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyinə diqqət çəkib. "Azərbaycan Macarıstan üçün strateji tərəfdaşıdır. 2023-cü ildə Siz Macarıstanda səfərdə oldunuz və o zaman strateji tərəfdaşlıq haqqında da sənəd imzalandı. Bu da o deməkdir ki, biz Azərbaycan ilə Macarıstan arasında təkcə iqtisadiyyat sahəsində deyil, mədəniyyət və humanitar sahələrdə də ən yüksək səviyyədə əməkdaşlıq qura bilmişik", - deyə Macarıstan təmsilçisi bildirib. Marta Matrai əlavə edib ki, Türk dövlətləri ilə əlaqələr qurmaq və gücləndirmək ölkəsi üçün çox vacibdir.

Prezident İlham Əliyev Azərbaycanla Macarıstanın bir çox istiqamətlərdə fəal işlədiklərini bildirib. Dost ölkənin prinsipial siyasət apardığına diqqət çəkən dövlətimizin başçısı "Macarıstan bizim Avropa İttifaqındakı bir nömrəli tərəfdaşımızdır və bəzi hallarda Azərbaycana qarşı əsassız ittihamlar irəli sürüləndə birinci bizim müdafiəmizə Macarıstan qalxır. Bilirəm ki, buna görə Macarıstan da bəzi Avropa ölkələri tərəfindən təzyiqlərlə üzləşir. Ancaq Macarıstanın prinsipial mövqeyi, haqqın, ədalətin yanında olması, beynəlxalq hüquqa hörmətlə yanaşması onun beynəlxalq nüfuzunu böyük dərəcədə artırır", - deyə vurğulayıb.

## Şimali Kipr TDT-nin tamhüquqlu üzvlüyünə doğru

Çıxışında "Təbii ki, Kipr türk xalqı da türk millətinin bir hissəsidir" deyən Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri Zorlu Töre ölkəsinin TDT-də müşahidəçi statusundan tamhüquqlu üzvlüyə can atdığını diqqətə çatdırıb. O, bu xüsusda fikirlərini ifadə edərək deyib: "İndi Şimali Kipr Türk Cümhuriyyəti Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv oldu. Ümid edirəm, Şimali Kipr Türk Cümhuriyyəti ən yaxın zamanda əsl üzvlüyə də keçər. Çünki biz əsl üzvlüyə keçsək, bəlkə o zaman Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı, Amerika təzyiqdən vaz keçər və artıq Şimali Kipr Türk Cümhuriyyəti davamlı hala gələr".

Azərbaycan Şimali Kiprin TDT-də təmsilçiliyinin genişləndirilməsi ideyasını dəstəkləyir. Ölkəmizin mövqeyini bir daha nəzərə çatdıran Prezident İlham Əliyev deyib: "Bilirsiniz ki, Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatında müşahidəçi olması ilə əlaqədar Azərbaycan çox fəal çalışırdı, fəal diplomatik səylər göstərmişdir və çox şadam ki, artıq birinci addım atıldı. O ki qaldı, Şimali Kipr Türk Cümhuriyyətinin tamhüquqlu üzvə çevrilməsinə, Azərbaycan olaraq biz bunu dəstəkləyirik. Bu, təbii olar. Şimali Kipr Türk Cümhuriyyəti tarix nöqteyi-nəzərindən Türk dünyasının bir parçasıdır".

## Qardaşlıq təzahürü...

Qırğızıstan Joqorku Keneşinin sədri Nurlanbek Şakiyev çıxışında bu gün Qırğızıstan-Azərbaycan əlaqələrinin çox yüksək səviyyədə olduğunu bildirib. "Biz münasibətlərimizin inkişafı üçün qarşılıqlı səy göstərməliyik və inanıram ki, gələcəkdə əlaqələrimiz daha da yüksək və yaxın olacaq", - deyə Nurlanbek Şakiyev əlavə edib.

Prezident İlham Əliyev vurğulayıb ki, Qırğızıstanla bizim əlaqələrimiz qardaşlıq əsasındadır. "Mənim Qırğızıstana dövlət səfərim çərçivəsində çox önəmli qərarlar qəbul edildi. Biz indi çox genişmiqyaslı əməkdaşlıq edirik. Bilirsiniz ki, Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradıldı. Söz düşmüşkən onu da bildirməliyəm ki, bizim Özbəkistanla və Qazaxıstanla da buna oxşar investisiya fondlarımız var. Qırğızıstan Prezidenti öz təşəbbüsü ilə Ağdam rayonunda bir məktəbin tikintisinə də dəstək göstərdi və onun təməlini biz birlikdə qoymuşuq. Bütün bunlar qardaşlıq təzahürləridir", - deyə dövlətimizin başçısı bildirib.

***Mübariz ABDULLAYEV***

# Türk birliyinin güclənməsi prosesində parlamentlərin rolu artır

Son illər regionda və dünyada cərəyan edən qlobal siyasi-iqtisadi proseslər də türk xalqlarının birliyini aktual məsələ kimi gündəmə gətirib. Bu mənada, türk dövlətlərinin müxtəlif təşkilatlar çərçivəsində əməkdaşlığı da xüsusi vurğulanmalıdır. Belə təşkilatlardan biri Türk Dövlətləri Parlament Assambleyasıdır (TÜRKPA). Türk birliyinin önəmi iyunun 6-da Bakıda keçirilən TÜRKPA-nın 13-cü Plenar İclasında da vurğulanıb. Tədbirdə TÜRKPA-ya üzv ölkələrin parlament spikerlərinin rəhbərliyi ilə nümayəndə heyətləri, o cümlədən TÜRKPA-da müşahidəçi üzvlərin və beynəlxalq təşkilatların təmsilçiləri iştirak ediblər.

Qeyd edək ki, 13-cü plenar iclas "Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olunmasında parlamentlərin rolu" mövzusuna həsr olunub. Milli Məclisinin sədri Sahibə Qafarova bildirib ki, Türk dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasət prioritetlərindən biri olaraq qalacaq. Ölkələrimiz arasında çoxtərəfli əlaqələrin dərinləşdirilməsində türk əməkdaşlıq təşkilatlarının hər birinin rolu olduğunu söyləyən S.Qafarova bildirib ki, bu təşkilatların ən böyük xüsusiyyəti onların ortaq mədəniyyətə, tarixə, dilə, mənəvi dəyərlərə malik xalqları və ölkələri birləşdirməsidir.

İclasda, həmçinin TÜRKPA-ya üzv dövlətlərin parlament rəhbərləri - Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanov, Qırğız Respublikası Joqorku Keneşinin sədri Nurlanbek Şakiyev, Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş, habelə Özbəkistan Respublikası Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva, təşkilatda müşahidəçi qismində təmsil olunan Şimali Kipr Türk Respublikası Məclisinin sədri Zorlu Töre və Macarıstan Milli Assambleyası sədrinin müavini Marta Matrai çıxış ediblər.

Plenar iclasda iştirak edən türk əməkdaşlıq təşkilatlarının, TÜRKPA-da müşahidəçi statusuna malik təşkilatların, TÜRKPA-nın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların və digər qurumların rəhbərlərinin və nümayəndələrinin də çıxışları dinlənilib. Belə ki, tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi Kurbanbek Ömüraliyev, Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktoti Raimkulova, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Asəf Hacıyev, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin icraçı direktoru Kairat Sarıbay, TURKSOY Baş katibinin müavini Sait Yusuf, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının Baş katibi Əli Əsgər Mohammadi Sicani, Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatının (İOFS) baş direktoru Berik Arın, Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin sədri İlyas Demirci, Manas Universitetinin Baş katibi Oktay Özgül fikirlərini bölüşüblər. Çıxışlarda bildirilib ki, hazırda bütün dünyada "yaşıl enerji"yə keçid enerji siyasətinin əsas istiqamətlərdən birini təşkil edir. "Yaşıl enerji" mənbələrindən enerji istehsalı qlobal iqlim dəyişikliyi ilə bağlı problemlərin aradan qaldırılmasında, qlobal istiləşmənin qarşısının alınmasında mühüm rol oynayır. Habelə bərpa olunan enerji sahəsində potensial imkanlardan, ekoloji cəhətdən təmiz enerji resurslarından səmərəli istifadə edilməsinin vacibliyindən bəhs edilib. "Yaşıl enerji"nin inkişafına diqqətin artırılması, "yaşıl enerji"dən istifadənin üstünlükləri barədə danışılıb. Qeyd olunub ki, bu, ənənəvi enerji resurslarından asılılığın azalmasına, ekoloji baxımdan müsbət nəticələrin əldə edilməsinə xidmət edəcək.



İclas iştirakçıları "yaşıl enerji"nin mahiyyəti, "yaşıl enerji"nin istehsalı üçün yeni texnologiyaların tətbiqi, "yaşıl iqtisadiyyat" konsepsiyası barədə fikirlərini açıqlayıblar.

Müzakirələr zamanı cari ildə Azərbaycanda keçiriləcək COP29-un iqlim problemlərinin qarşısının alınması baxımından mühüm əhəmiyyəti xüsusi qeyd olunub.

İclasda təşkilati məsələlərə də baxılıb, TÜRKPA-nın komissiya sədrləri və sədr müavinləri, habelə Baş katibin müavini vəzifələrinə irəli sürülən namizədliklərə münasibət bildirilib. Tədbirdə TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının, Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının, İqtisadi əməkdaşlıq komissiyasının, Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının hesabat məruzələri və tövsiyə qərarları qəbul edilib.

Sonra iclasda TÜRKPA tərəfindən hazırlanan bir sıra model qanunların layihələri, o cümlədən "Fərdi məlumatların qorunması haqqında", "Əmək bazarının tələbi nəzərə alınmaqla kadrların hazırlanması haqqında", "Tütün məmulatlarının istifadə edilməsinin məhdudlaşdırılması haqqında", "Ticarət nümayəndəlikləri haqqında", "Dövriyyəyə buraxılan məhsulların təhlükəsizliyi və keyfiyyətinin əsasları haqqında" sənədlər təqdim edilib.

Qanun layihələri parlamentarilər tərəfindən müzakirə edildikdən sonra qəbul olunub. Bundan əlavə, TÜRKPA-nın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun hesabat məruzələri və tövsiyə qərarları dinlənilib.

Daha sonra iclas iştirakçılarına TÜRKPA-nın seçki və referendum müşahidə missiyalarının yekunları barədə məlumat verilib. Parlamentarilər 2023-cü il aprelin 30-da Özbəkistanda Konstitusiya referendumu, 2023-cü il mayın 14-də Türkiyədə prezident seçkiləri və parlament ümumi seçkiləri, həmin il mayın 28-də prezident seçkilərinin ikinci turu, iyulun 9-da Özbəkistanda növbədənkənar prezident seçkiləri, bu il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri ilə bağlı seçki və referendum müşahidə missiyalarının yekun hesabatlarını qəbul ediblər.

Plenar iclasda, həmçinin 2025-ci maliyyə ili üçün TÜRKPA Katibliyinin büdcəsi təqdim edilib və qəbul olunub. Həmçinin Türk Dövlətləri Parlament Assambleyasının 14-cü Plenar iclasının 2025-ci ildə Qazaxıstanda keçirilməsi qərara alınıb.

TÜRKPA-nın 13-cü Plenar iclasının yekununda Bakı Bəyannaməsi qəbul edilib.

Onu da qeyd edək ki, Azərbaycan Milli Məclisi ilə Özbəkistan Ali Məclisi Senatı arasında parlamentlərarası əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üçün praktiki tədbirlər planı (yol xəritəsi) imzalanıb. Sənədi Milli Məclisin sədri Sahibə Qafarova və Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva imzalayıblar. İmzalanma mərasimində qeyd olunub ki, dost və qardaş ölkələrimiz, dövlət başçılarımız arasında mövcud yüksək səviyyəli münasibətlər qanunvericilik orqanlarımız arasında da əlaqələrin daha da genişləndirilməsinə stimul verir. Bu mənada, imzalanan yol xəritəsinin parlamentlərimiz arasında əməkdaşlığın daha da dərinləşməsində əhəmiyyəti diqqətə çatdırılıb.

Sənəddə qarşılıqlı səfərlərin təşkili, qanunvericilik fəaliyyəti sahəsində təcrübə mübadiləsi, beynəlxalq parlament təşkilatlarında qarşılıqlı fəaliyyət və digər məsələlərlə əlaqədar müddəalar öz əksini tapıb.

Beləliklə, TÜRKPA-nın 13-cü plenar iclası çərçivəsində keçirilən tədbirlər türk dövlətləri arasında əlaqələrin daha da güclənməsinə xidmət edir. Türk birliyinin güclənməsi prosesində parlamentlərin rolu artır.

***Nardar BAYRAMLI***

# Naxçıvandan Bakıya...

## 9 iyun - müstəqilliyin əbədiliyinə inamın tarixi! Xalqa Azərbaycanı xilas edəcək lider - inam və etimad ünvanı lazım idi...

Siyasi rəngarəngliyi ilə bütün dövrlərdən kəskin seçilən XX əsr xalqımızın tarixinə böyük əhəmiyyətə malik bir yüzillik kimi yazıldı. Ötən əsrin ikinci onilliyinin sonunda imperiya əsarətindən xilas olub müstəqilliyini elan edən Azərbaycanın azadlıq arzusu cəmisi 23 aydan sonra elə beşikdəcə boğuldu. Həmin dövrdə müstəqilliyin süqutunun səbəbləri bir sıra fərqli rakurslardan müzakirə olunurdu. Əsl səbəb isə elə yüzilliyin sonunda, ölkəmiz ikinci dəfə azadlığını əldə edən zaman bütün ştrixləri ilə ortaya çıxdı. Əsrin son onilliyində ikinci dəfə müstəqillik əldə edən Azərbaycan yenidən dilemma qarşısında dayanmışdı - tarix təkrar olunurdu, 1920-ci ildə baş verən analoji situasiya fərqli rakursda yenidən ortaya çıxmışdı. Azərbaycan ikinci dəfə azadlığın şirinliyini dadmamış onu itirmək təhlükəsi ilə üz-üzə qalmışdı...



Bəli, SSRİ-nin dağılmasının ardından 1991-ci ildə öz müstəqilliyini elan edən Azərbaycan ilk anlardanca böyük sınaqlarla üz-üzə dayanmalı oldu. Müstəqillik aktının qəbulu ilə Azərbaycan xalqı imperiya zəncirindən rəsmən azad olsa da, ürəyində həmişə yaşatdığı, həsrətini çəkdiyi azadlıq ideallarına qovuşsa da, dövlət müstəqilliyinin qorunub saxlanılması, suverenliyin qorunması təhlükə qarşısında idi. Cəmisi 2 il ərzində bir-birini əvəzləyən, hətta ölkə hakimiyyətini qəsb edən qüvvələrin səriştəsizliyi və xəyanəti gənc müstəqil dövlətçiliyimizi uçurumun bir kənarına gətirib çıxarmışdı....

Həmin vaxt ölkədə AXC-Müsavat cütlüyü idarəetmə sükanının arxasında olsa da, Azərbaycan idarəolunmaz vəziyyətdə idi. Bu situasiya ölkəni siyasi, ideoloji, ictimai, iqtisadi baxımdan iflic vəziyyətinə salmışdı. Ölkədə xaos və anarxiya, hakimiyyətdaxili çəkişmələr pik həddə çatmışdı. Ayrı-ayrı qruplar "mərkəzi hakimiyyətə tabe olmaq istəmirdi. Belə bir şəraitdə, hakimiyyət böhranının, qruplararası çəkişmənin ən yüksək həddə çatdığı vaxtda - 1993-cü il iyunun 4-də Gəncədə sabiq korpus komandiri və AXC-Müsavat hakimiyyətinin Qarabağ üzrə xüsusi nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi 709-cu briqadanın ləğvi ilə bağlı qərar imzalandı. Qərara tabe olmayan Surət Hüseynov tabeliyindəki qoşun hissəsinin Bakıya doğru istiqamət götürməsi əmrini verdi. 1993-cü il 4 iyun tarixində Gəncədə Surət Hüseynovun başçılıq etdiyi qrupla hökumət qüvvələri arasında toqquşma baş verdi və Azərbaycan vətəndaş müharibəsinə sürüklənirdi.




Tarixi-siyasi məsuliyyəti öz üzərinə götürərək Azərbaycanı xilas edəcək, tənəzzüldən qurtararaq tərəqqi yoluna çıxaracaq lider - şəxsiyyət, inam və etimad ünvanı lazım idi. Bu isə zəngin dövlətçilik təcrübəsinə malik müdrik dövlət xadimi, vətənpərvər şəxsiyyət Heydər Əliyev idi.

1993-cü ilin iyununda - ölkədə vətəndaş müharibəsi başladığı çətin, ziddiyyətli bir vaxtda xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə dəvət olunan ulu öndər Heydər Əliyev iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Beləliklə də gənc müstəqil respublikanın suverenliyi, azadlığı və müstəqilliyi xilas oldu.

Bütövlükdə, Azərbaycanın inkişaf salnaməsini yazan Ulu Öndər ən çətin gündə dövlətinin və xalqının yanında oldu - iyunun 15-də  Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bir qədər sonra isə Milli Məclisin qərarı ilə Ulu Öndər Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ümummilli lider Heydər Əliyevin müdik və uzaqgörən siyasəti sayəsində Azərbaycanda hadisələr müsbət məcraya yönəldi, ölkənin parçalanması təhlükəsi aradan qaldırıldı, qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu. Bəhs olunan tarixi dövrə ekskurs edən Prezident İlham Əliyev vurğulayıb: "Bax bu ağır vəziyyətdə - 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlmişdir və xalqın dəstəyi, inamı hesabına vəziyyət sabitliyə doğru getməyə başlamışdır".

Beləliklə, 1993-cü ilin 9 iyunu xalqımızın mübarizələrlə dolu yeni tarixinə yeni eranın - müstəqilliyin əbədiliyinin təmin olunması tarixinin başlanğıcı kimi daxil oldu. Məhz bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı. Bu siyasi kurs 2003-cü ildən Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Azərbaycanın iqtisadi imkanları artdıqca, ölkəmiz əldə etdiyi yüksək temp üzrə inkişaf ektdikcə beynəlxalq mövqeləri də möhkəmlənir, dünyanın diqqət mərkəzində olmaqda davam edir. Bu gün Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmiş qalib ölkədir. Dövlətimiz Cənubi Qafqazın lideridir. Bütün bu zəfərlər və qailibiyyətlər, nailiyyətlər isə Prezident İlham Əliyevin yürütdüyü düzgün, davamlı və qətiyyətli siyasi kursun nəticələridir...

*Pərviz SADAYOĞLU*

# Birgə bəyanat

## Beynəlxalq təşkilatlar Ermənistandan Üzeyir Hacıbəylinin əsərlərinin mənimsənilmə hallarının aradan qaldırılmasını tələb etməlidir!

Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsinin və Azərbaycan musiqi irsinin digər nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi ilə bağlı birgə bəyanat yayıb.

Bəyanatda dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsi guya erməni bəstəkarı Arno Babacanyanın müəllifi olduğu "Vaqarşabat rəqsi" adı altında "Youtube" platformasında yerləşdirildiyi bildirilir və bu mənimsəmə halının haqlı olaraq Azərbaycan cəmiyyəti tərəfindən kütləvi etiraza səbəb olduğu vurğulanır. Bəyanatda eləcə də xatırlanıb ki, vaxtilə "Soyuzmultfilm" studiyasında istehsal edilmiş "Pyos i kot" adlı cizgi filmində komediyanın məşhur hissəsi - Məşədi İbadın "Gəl xanım, gəl yanıma..." ariyası erməni musiqisi kimi təqdim edilib. Filmin titrlərində bəstəkarın adı Karen Xaçaturyan olaraq qeyd edilib. K.Xaçatryanın törətdiyi plagiatlıq faktı ilə bağlı 2010-cu ildə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi "Detskiy mir" teleşirkətinə bildiriş göndərərək, həmin cizgi filminin nümayişinin dayandırılmasını tələb edib. Məsələ ilə bağlı sübutedici sənədlərlə birlikdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) etiraz məktubu da göndərilib.

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

AZƏRBAYCAN RESPUBLİKASI
ƏQLİ MÜLKİYYƏT AGENTLİYİ
COPAT

Üzeyir Hacıbəylinin əsərlərinin ermənilər tərəfindən mənimsənilməsi təkcə "O olmasın, bu olsun" ilə məhdudlaşmayıb: 1915-ci ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası guya səhvən "erməni operettası" kimi təqdim olunub, bununla bu operettanın mənimsənilməsinin əsası qoyulub. Sənəddə erməni plagiatçılığını ifşa edən faktlar göstərilib.

Bəyanatda deyilir: "Qeyd edilənlərlə bağlı bəyan edirik ki, BMT üzvü olan Ermənistan Respublikası iştirak etdiyi beynəlxalq müqavilələr vasitəsilə əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı üzərinə götürdüyü çoxsaylı vəzifə və öhdəliklərini yerinə yetirmir, digər məsələlərdə olduğu kimi, əqli mülkiyyət sahəsində də beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqda davam edir.

Ermənistan Respublikasının müvafiq dövlət orqanlarından Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" və "Arşın mal alan" əsərlərinin yuxarıda qeyd edilən mənimsənilmə hallarının aradan qaldırılmasını, Üzeyir Hacıbəylinin müəllif hüquqlarının bərpa edilməsini, habelə Ermənistan Respublikasının ərazisində və ya onun subyektləri tərəfindən Azərbaycan mədəni irsi, xüsusilə də musiqi irsi nümunələrinin kütləvi şəkildə mənimsənilməsi hallarını təcili surətdə araşdırmağı və aradan qaldırmağı, beynəlxalq hüquqa və daxili milli qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb etməyi, görülmüş tədbirlər barədə ÜƏMT-yə məlumat verməyi tələb edirik".

# Cənubi Qafqazın rifahı üçün...

## Rəsmi Vaşinqton sülh arzusunu ifadə edir

Cənubi Qafqazda sülhün vacibliyi demək olar ki, bütün parametrlər üzrə xüsusi önəmini nümayiş etdirir. İstər siyasi-hərbi reallıqlar, istərsə də iqtisadi və ticari imkanlar sülh prosesinin yekunlaşmasını və qısa zamanda bölgənin təhlükəsizlik seqmentinin ən yüksək səviyyədə formalaşmasını zəruri edir. Beynəlxalq münasibətlərin yeni düzəninin formalaşdığı hazırkı zaman kəsiyində ilk növbədə Cənubi Qafqazda əmin-amanlığın bərpa edilməsi əsas şərtlərdən biri kimi çıxış edir. Şərq-Qərb, Şimal-Cənub tranzit daşıma xəttinin ən əsas və ən vacib kəsişmə nöqtəsi sayılan Cənubi Qafqaz yeni ticari trendin nüvəsinə çevrilməkdədir.

Azərbaycan dövlətinin milli maraqlara əsaslanan praqmatik xarici siyasət kursu isə Cənubi Qafqazın sabit və çoxşaxəli inkişafı üçün mühüm zəmin formalaşdırır. Ölkəmizin regional sabitləşdirici faktor olaraq yerləşdiyi coğrafiyada oynadığı rol, iqtisadi-ticari əlaqələrin inkişafına verdiyi dəstək, siyasi-hərbi reallıqların formalaşdırılması üçün yaratdığı zəmin diqqətlə izlənir. Təsadüfi deyil ki, bu ilin aprelindən başlayaraq dinamizm qazanan sülh prosesi və onun predmetləri ən kiçik detallarına qədər incələnir. Aparılan araşdırmalar isə bir faktı ortaya çıxarır - Azərbaycan yerləşdiyi bölgənin ümumi inkişaf tendensiyasının ən ön sıralara çıxması üçün bütün səylərini ortaya qoyur. Nəticələr isə göz önündədir: sülhün imzalanacağı təqdirdə Mərkəzi Asiya - Cənubi Qafqaz - Kiçik Asiya xətti üzrə yeni geostrateji iqtisadi-siyasi məkan formalaşacaq ki, bu da dünya üçün yeni iqtisadi sistemin yaradılması deməkdir.

### Siyasi mövqe - mümkün qədər tez sülh sazişi bağlanması dəstəklənir

Qlobal dünyada baş verənlər və onun təhlili mütləq şəkildə maraqların uzlaşması kontekstinə istinad edir - yaranan yeni siyasi-iqtisadi situasiyalar isə bu və ya digər şəkildə böyük güclərin diqqət mərkəzindədir. Prosesin nəticəsi hamı üçün vacibdir - Azərbaycan ilə Ermənistan arasında əldə olunacaq razılaşma bütün dünya üçün müsbət imkanlar vəd edir. Şərq-Qərb ticari xəttinin digər tərəfi sayılan Qərb məkanının bu mənada baxışları xüsusi təhlil tələb edir. Xüsusilə son irəliləyişlərin fonunda bütünlüklə diqqətin prosesin nəticələnməsinə yönəldiyini vurğulaya bilərik.

Məsələn, "Report"un ABŞ-nin Azərbaycan və Ermənistan arasında davamlı sülhün əldə olunması istiqamətində səyləri ilə bağlı sorğusuna cavab olaraq ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi deyib ki, Vaşinqton Cənubi Qafqaz xalqlarına sülh və sabitlik gətirən istənilən prosesə kömək etməyə hazırdır. Rəsmi nümayəndə vurğulayıb ki, ABŞ dövlət katibi Antoni Blinken, eləcə də ölkənin bir sıra digər rəsmiləri həm Ermənistan, həm də Azərbaycan hökumətlərində yüksək vəzifəli rəsmilərlə daim təmasdadırlar: "Birləşmiş Ştatlar sülh sazişi bağlamaq üçün çalışan Ermənistan və Azərbaycanı dəstəkləməyə sadiqdir. Ermənistan və Azərbaycan arasında indiyədək əldə edilmiş irəliləyişdən ruhlanırıq və regionun rifahı üçün iki ölkənin mümkün qədər tez sülh sazişi bağlamasını dəstəkləyirik".

Dövlət Departamenti rəsmisi delimitasiya prosesi ilə əlaqədar Bakı və İrəvan arasında əldə olunmuş razılaşmanı da alqışladıqlarını söyləyib: "Biz Alma-Ata Bəyannaməsinə əsaslanan sərhədlərin delimitasiyası üzrə davamlı irəliləyişi alqışlayırıq. Bu, Ermənistan və Azərbaycan arasında davamlı və layiqli sülh sazişinin bağlanması istiqamətində mühüm addımdır".

Beləliklə, ABŞ ikili təmasların sülhlə nəticələnəcəyinə inamını ifadə edir. Bu, Azərbaycanın qəti mövqeyinin ortaya qoyduğu nəticədir - o baxımdan ki, dövlətimiz israrla üçüncü tərəf olmadan mühüm uğurların əldə edilə biləcəyinə real nümunələri ortaya qoydu. Beləliklə, 2020-ci ilin Vətən müharibəsi, 2023-cü ilin antiterror tədbirlərində olduğu kimi, beynəlxalq və hüququ əsas götürməklə regional münaqişələrin həlli presedentini formalaşdırdı...




### Ticari mahiyyət - ABŞ Zəngəzur dəhlizinə "isti" yanaşır

Uzun illərdir ki, Şərq-Qərb ticari yolunun ən mühüm və strateji həlqəsi, seqmenti kimi xarakterizə olunan Azərbaycan bununla ticari münasibətlərə yeni ştrixlər qazandırır - xüsusilə, Zəngəzur dəhlizi kimi effektiv və rentabelli xəttin dövriyyəyə qatılması Şərq-Qərb logistik ticarət və yükdaşıması üçün yeni üfüqlər açacaq. Mühüm perspektivə malik bu nəqliyyat dəhlizi - Zəngəzur dəhlizi yüksək üstünlüklər vəd etməkdədir. Nəzərə alınmalıdır ki, bu xətt iki cəhət arasında ən qısa ticari yoldur. Bu isə daha çox mənffət deməkdir. Eyni zamanda, təhşlükəsizlik baxımından daha sərfəlidir - təhlükəsizliyin təmini ilə bağlı bir sıra məqamlara diqqət yetirmək lazımdır:



- Yaxın coğrafiyalardakı kataklizmlər, siyasi və ya hərbi qarşıdurmalar, hətta fikir ayrılıqları belə Zəngəzur dəhlizinin daha təhlükəsiz xətt olduğunu deyir;

- Regionda perspektivi yüksək görülən əməkdaşlıq platformalarında demək olar ki, bütün bölgə iştirak edəcək - təbii ki, istəyindən asılı olaraq. Bu mənada, bütün regional faktorların bu dəhlizin təhlükəsizliyinə qarant olacağına da əminlik yaranır;

- Hazır infrastruktur bu dəhlizin qısa zamanda reallaşması üçün əsl zəmindir. Füzuli Beynəlxlaq Hava Limanı bu mənada, xüsusi qeyd edilməlidir. Beynəlxalq statusa malik olan bu hava limanı yükdaşımalarda, sərnişindaşımada xüsusi əhəmiyyət kəsb edir;

- Bu dəhlizin keçdiyi coğrafiya özünün üstünlükləri ilə də seçilir - çünki Şərq-Qərb tranziksiyası məhz bu regionda Şimal - Cənub xətti ilə perpendikulyarlaşa, yəni görüşə bilər. Bu coğrafiya Yaxın Şərq və ərəb regionu üçün də yeni perspektivlər yaradır. Türkiyə vasitəsilə bu xətt üzrə Yaxın Şərqə çıxış imkanı qazanıla bilər. Təsadüfi deyil ki, ABŞ Dövlət Departamentinin açıqlamsında bu məsələyə də toxunulur. Bildirilir ki, ABŞ Şərq-Qərb marşrutu üzrə ticarəti gücləndirmək üçün Azərbaycanla əməkdaşlıq etməyi planlaşdırır. Qeyd olunub ki, Azərbaycan Qərb bazarlarını Mərkəzi Asiya ölkələri ilə əlaqələndirərək bu ölkələrin qlobal bazarlara çıxışını təmin edəcək potensiala sahib olan şərq-qərb ticarət yolunun mühüm hissəsidir.

Dövlət Departamentindən bildirilib ki, ABŞ Azərbaycanla prioritet sahələr olan təhlükəsizlik, demokratiya və insan haqları, iqtisadiyyatın inkişafı üçün əməkdaşlığı davam etdirəcək: "Azərbaycan bu illər ərzində Avropada və regionda enerji təchizatının diferensiallaşmasında və təhlükəsizliyində mühüm rol oynayır. ABŞ və Azərbaycan dekarbonizasiya səylərini davam etdirdiyinə görə, bərpa olunan enerji və təmiz enerji üzrə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi əməkdaşlıq üçün əlavə imkandır".

Bir sözlə, Zəngəzur dəhlizinin aktuallığı artıq Şərq-Qərb logistikasına marağı ən üstün dərəcədə artırır. Dəhliz həm də sivilizasiyalar arasında əlaqələrin möhkəmləndirilməsinə də töhfə vermək imkanındadır. Beləliklə, nəqliyyat dəhlizinin marşrut xəttinə diqqət yetirdikdə görmək olar ki, Zəngəzur dünyanın "ticarət aortası" olmaq üçün əsas namizəddir.

*P.İSMAYILOV*



# Büdcənin gəlir və xərcləri artırıldı

## Milli Məclis 2024-cü ilin dövlət büdcəsinə dəyişikliklərlə bağlı qanun layihəsini birinci oxunuşda təsdiq edib

Milli Məclisin iyunun 7-də keçirilən plenar iclasında 2024-cü ilin dövlət və icmal büdcələrinə dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsi birinci oxunuşda təsdiq edilib. Yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat, dövlət büdcəsinin gəlirləri isə 36 milyard 353 milyon manat həcmində proqnozlaşdırılır. Büdcə kəsiri 764 milyon manat artaraq 3 milyard 354 milyon manata çatdırılıb. Beləliklə, dürüstləşmədən sonra büdcənin gəlirləri 2 milyard 180 milyon manat və ya 6,4 faiz, xərcləri isə 2 milyard 944 milyon manat artırılıb.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili büdcə zərfinə dəyişiklikləri şərtləndirən əsas amillərdən danışarkən qeyd edib ki, Qarabağ və Şərgi Zəngəzurda tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin artırılması, infrastruktur təyinatlı layihələrin maliyyə təminatı ilə bağlı əsaslı xərclər, beynəlxalq münasibətlər və digər beynəlxalq fəaliyyət, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, bəzi xidmətlər üzrə verilən subsidiyalarla bağlı xərclər və zəruri hesab olunan digər istiqamətlər üzrə vəzifələrin icrası üçün dövlət büdcəsi qarşısında əlavə 3,7 milyard manat maliyyə tələbatı yaradıb. Qeyd olunan maliyyə tələbatının gözlənilən artımı dövlət büdcəsinin yenilənmiş proqnozlara əsasən gəlirlərinin, büdcə kəsirinin böyüdülməsi, təsdiq olunmuş büdcənin bəzi xərclərinin optimallaşdırılması və yerdəyişməsi nəticəsində formalaşan sərbəst vəsait hesabına qarşılanması nəzərdə tutulur.

Büdcənin artan əlavə gəlirlərini təmin etmək üçün mövcud iqtisadi artım mənbələri və fiskal yığımların dinamikası da kifayət qədər qənaətbəxşdir. Belə ki, 2024-cü ilin yanvar-aprel aylarında ölkədə 38,2 milyard manat, o cümlədən qeyri-neft-qaz sektorunda 24,2 milyard manat həcmində ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 4,3 faiz, qeyri-neft sektoru üzrə isə 7,7 faiz artıb. Eləcə də cari ilin 4 ayının dövlət büdcəsinin icra göstəricilərində artımlar qeydə alınıb. Bu dövrdə dövlət büdcəsinin gəlirləri 12 milyard 144 milyon manat proqnoza qarşı 13 milyard 259 milyon manat olub ki, bu da nəzərdə tutulduğundan 1 milyard 115 milyon manat və ya 9,2 faiz çoxdur. Proqnozla müqayisədə artımın 67,9 faizini, yaxud 750 milyon manatını qeyri-neft-qaz sektoru, 32,1 faizini və ya 358 milyon manatını isə neft-qaz sektoru üzrə əlavə gəlirlər təşkil edib. Beləliklə, cari ilin yanvar-aprel ayları üzrə dövlət büdcəsinin gəlirlərinin 6 milyard 867 milyon manatı qeyri-neft sektorunun payına düşüb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 434 milyon manat və ya 6,8 faiz çoxdur. Ötən dövr ərzində dövlət büdcəsinin




gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisi 51,8 faiz təşkil etməklə proqnozu 1,5 faiz üstələyib.

Beləliklə, hazırkı fiskal vəziyyət və yığım potensialı dövlət büdcəsi gəlirlərinin ilin sonuna proqnozlaşdırılan göstəricidən daha da çox olacağını deməyə bizə əsas verir. Bu isə dürüstləşmədən sonra artırılan gəlirlər hesabına büdcədə nəzərdə tutulan bütün xərc maddələrinin icra olunmasını təmin edə biləcək.

Dürüstləşmədən sonra dövlət büdcəsinin gəlirlərinin 48,9 faizi və ya 17,7 milyard manatı neft sektorunun payına düşəcək. Büdcənin əsas fiskal gücü - 18,6 milyard manatı və ya 51,1 faizi isə qeyri-neft sektorunun payına düşəcək. Belə ki, artım üçün əlavə edilən 2,2 milyard manat vəsaitin cəmi 605 milyon manatının neft-qaz sektorundan daxil olan vəsaitlər təşkil edəcək, qalan 1,6 milyard manat isə tamamilə qeyri-neft yığımları olacaq. Bu da o deməkdir ki, büdcədə yenə də əsas fiskal ağırlıq mərkəzi qeyri-neft mənbələrinin sütunları üzərində formalaşacaq.

2024-cü il dövlət büdcəsinin artırılan əlavə xərclərinin məbləği 2,9 milyard manata bərabərdir ki, həmin xərclərin təxminən 2,1 milyard manatı azad edilmiş ərazilərin bərpa və quruculuq işlərinə yönəldiləcək. Bu isə ölkəmizdə bir nömrəli vəzifə olan azad edilmiş ərazilərin quruculuq işlərinin daha da geniş miqyas almasının ritminin artırılmasına əlavə güc və maliyyə təminatı olacaq. Bununla da büdcədə 2024-cü il üzrə azad edilmiş ərazilərin bərpası
xərcləri 9,9 milyard manata çatacaq.

Büdcədə xərclərin artırılmasından sonra digər əsas xərc maddəsi kimi strateji məqsədlərdən biri olan milli təhlükəsizlik məsələlərinin maliyyə təminatının daha da yaxşılaşdırılması prioritetlilik təşkil edəcək. Bu sahəyə əlavə yönələn xərclərin məbləği 705 milyon manata bərabərdir, bununla da büdcədə müdafiə və milli təhlükəsizlik xərclərinin həcmi 7 milyard 126,3 milyon manata çatmış olacaq.

İkinci əsas xərc istiqaməti ki, bu sahəyə əlavə yönələn xərclərin məbləği 705 milyon manat təşkil edir və həmin sahənin ümumi xərcləri 7 milyard 126,3 milyon manata çatmış olacaq

Yenidən baxılma ilə 2024-cü il icmal büdcənin gəlirləri isə 43 milyard 480 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 4482,5 milyon manat və ya 11,5 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 45 milyard 591,8 milyon manat proqnozlaşdırılır ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3215,6 milyon manat və ya 7,6 faiz çoxdur. İcmal büdcə 2,1 milyard manat kəsirlə proqnozlaşdırılır.

İcmal büdcənin tərkibinə daxil olan Dövlət Neft Fondunun büdcəsinin gəlirləri cari ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 2 milyard 36 milyon manat və ya 16,9 faiz artmış olacaq. Fondun büdcəsinin xərcləri isə 4,7 milyon manat çoxdur. Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri və xərcləri bərabər olaraq 30 milyon manat artırılmaqla 6 milyard 949,9 milyon manat təşkil edəcəkdir. İcbari Tibbi Sığorta Fondunun gəlir və xərcləri bərabər olaraq 38,9 milyon manat artırılmaqla 2 milyard 850,3 milyon manata çatacaq. İşsizlikdən Sığorta Fondunun gəlirləri və xərcləri isə 238 milyon manat proqnozlaşdırılır.

***E.CƏFƏRLİ***

# Ümumdünya Ticarət Təşkilatına üzvlüyün bir addımlığında...

## Rəqabət Məcəlləsinin qəbul olunması Azərbaycanın ÜTT-yə üzvlüyünü yaxınlaşdırıb

Prezident İlham Əliyev Ümumdünya Ticarət Təşkilatının (ÜTT) baş direktoru Nqozi Okonyo-İvealanı qəbul edərkən ölkəmizin bu quruma daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparılıb. Eləcə də ÜTT-nin baş direktoru Nqozi Okonyo-İveala İqtisadiyyat Nazirliyində olub və keçirilən görüşdə ölkəmizdəiəlverişli işgüzar mühit və investorlar üçün yaradılan imkanlar barədə məlumat verilib, beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, o cümlədən ÜTT-yə üzvlüklə bağlı görülən işlərin əhəmiyyəti vurğulanıb. Azərbaycanın bu təşkilata daxilolma prosesi ilə bağlı atdığı addımlar Nqozi Okonyo-İveala tərəfindən müsbət qarşılanıb.

Ümumdünya Ticarət Təşkilatı ilə sıx əməkdaşlıq Azərbaycanın iqtisadi siyasətində hər zaman ilk yerlərdən birini tutub və 1995-ci ildən bu qurumla sıx əməkdaşlıq edirik. Əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, bununla da iqtisadi inkişafın artırılması və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarət olan ÜTT-yə üzvlük üçün ölkəmiz ötən dövrdə iqtisadi-hüquqi addımlar adıb, çoxtərəfli ticarət danışıqlarını həyata keçirib. Respublikamız 1997-ci ildə ÜTT-yə üzv olma niyyətini əks etdirən müraciəti ÜTT Katibliyinə təqdim edib və həmin il ÜTT katibliyində ölkəmiz üzrə İşçi Qrup yaradılıb. İndiyə qədər Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü ilə bağlı bir neçə iclas keçirilib və üzvlük prosesi çərçivəsində ABŞ, Avropa İttifaqı, Rusiya, İsveçrə, Tailand, Braziliya, Yaponiya ilə mallar və xidmətlər üzrə ikitərəfli danışıqlarda razılaşmalar əldə olunub. İkitərəfli danışıqlar nəticəsində bir neçə ölkə ilə protokollar imzalanıb.

Hazırda öz qanunvericiliyini ÜTT tələblərinə uyğunlaşdıran ölkəmiz 10-dan artıq hüquqi sənədi təkmilləşdirib, gömrük qanunvericiliyini tam optimallaşdırıb. Yeni qəbul edilmiş Rəqabət Məcəlləsi isə artıq Azərbaycanın ÜTT-yə üzv olmasını tam yaxınlaşdırıb.

Hazırda Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində daşınmaların tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarət icması da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətliliyini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasında xüsusi təşəbbüskarlıq göstərir, dəstək verir. Məsələn, Bakıda keçirilən Enerji Həftəsində çıxış edən nüfuzlu "Atlantic Council" Qlobal Enerji Mərkəzinin baş direktoru Landon Derentz Orta Dəhlizin imkanlardan danışarkən region ölkələrinin dünya bazarına çıxış üçün ən rentabelli logistika-nəqliyyat xətti kimi Transxəzərin mərkəzi kimi Azərbaycanın əhəmiyyətini xüsusi olaraq dəyərləndirib. O, rəsmi Bakının iradəsi və resursların şaxələndirilməsində nümayiş etdirdiyi qətiyyət sayəsində Orta Dəhlizin həyata vəsiqə qazanma ərəfəsində olduğunu xatırladıb.

Bundan başqa, Azərbaycan sərhəd-keçid sistemində ən müasir tex-




nologiyalar tətbiq edərək gömrük rejimini asanlaşdırır, qlobal ticarət tərəfdaşları ilə gömrük dərəcələrinin aşağı salınması istiqamətində addımlar atır. Bir çox ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalayır. Asan ticarətin ən təşviqedici aləti olan Preferensial Ticarət Sazişləriini imzlamaq üçün bir çox ölkələrlə danışıqlar aparır. 2021-ci ildə ilk dəfə olaraq qardaş Türkiyə ilə qarşılıqlı ticarətdə yeni yol açan Preferensial Ticarət Sazişinin qüvvəyə minməsi iqtisadi və ticari əlaqələrdə gömrük rejiminin sadələşdirilməsini təmin edib və bir neçə mal qrupu üzrə gömrük dərəcələrinin azalmasına gətirib çıxarıb. "Preferensial Ticarət Sazişi"nin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, qeyri-tarif maneələrinin ləğv olunması, iqtisadi əlaqələrin və ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasını nəzərdə tutur. Tərəflər ilk mərhələdə idxal və ixrac olunan bir sıra kənd təsərrüfatı və yeyinti məhsullarının idxalına tətbiq edilən gömrük rüsumlarını qarşılıqlı olaraq azaldıb. Ona görə də bu cür sazişlərin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur ki, bu da ÜTT-nin tam maraqlarına cavab verir.

Yeri gəlmişkən, bir neçə gün əvvəl yeni yaradılan Transxəzər Gömrük Tranzit Portalı da bu strateji hədəflərin bir hissəsidir və beynəlxalq ticarətin asanlaşmasına xidmət edir. Tranzit Portalı xidmətlərin asan və şəffaf bir pəncərədə birləşdirən sistem olmaqla, yüklərin tranzit ölkələrin ərazisindən sürətli keçidini təmin edən, quru və dəniz limanları arasında daşınmalar üçün səmərəli nəzarətə şərait yaradan rəqəmsal qovşaqdır. Nəticədə bu görülən bütün işlər məhz Ümumdünya Ticarət Təşkilatının tövsiyələrinə tam uyğundur və bu qurumun asan ticarət tələbləri ilə üst-üstə düşür.

Beynəlxalq ticarətdə öz yerini möhkəmləndirmək, ixrac coğrafiyasını daha da genişləndirmək Azərbaycanın yeni iqtisadi hədəflərində də ön sırada yer alır. Milli İxrac Strategiyasına əsasən, Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, yeni bazarların araşdırılması, ixracın stimullaşdırılması və təşviqi istiqamətində sistemli və kompleks tədbirlər, həmçinin yeni xarici ölkə bazarlarının tapılması və ixrac istiqamətlərinin coğrafi hüdudları müəyyən edilib. "Milli ixrac strategiyası" 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir. Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracını 2025-ci ilədək ötən illə müqayisədə iki dəfə artırmaq və 3,7 milyard dollara çatdırmaq planlaşdırılır. Adambaşına düşən qeyri-neft ixracının 2025-ci ildə 450 dollar hədəfinə çatdırılması nəzərdə tutulur. Həmçinin xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin daha da təşviq edilməsi, "Made in Azerbaijan" və "İnvest in Azerbaijan" ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi, iri investorların Azərbaycana gətirilməsi və qeyri-neft istehsalı sahələrinə cəlbi məqsədilə yeni qitisadi alətlərin tətbiqi strategiya sənədinin əsas prioritetləri sırasında yer alır.

Bələliklə, qlobal nəqliyyat daşınmalarının əsas coğrafi koordinatlarından birinə çevrilən Azərbaycanın həm də beynəlxalq ticarətin axınlarını təmin etməyə hazırlaşır. Bu kimi yeni reallıqlar da ölkəmizin ÜTT-yə üzvlüyünü labüdləşdirib.

***ELBRUS***

# Sosial fərq aradan qalxır...

## Hərbçilərin pensiyası artırılır, həm də sosial təminatı yaxşılaşdırılır

Milli Məclisin plenar iclasında "Əmək pensiyaları haqqında qanun" layihəsinə dəyişikliklər ikinci oxunuşda qəbul edilib. Özündə dörd istiqaməti ehtiva edən dəyişikliklərdən biri də hərbçilərlə bağlıdır. Yeni dəyişikliklərə əsasən, hərbi xidmət dövründə xəstələnmə səbəbindən sağlamlıq imkanları 81-100 faizi məhdudlaşan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, əlilliyi olan hərbi qulluqçulardan xidməti vəzifələri yerinə yetirməklə bağlı olmayan əlilliyi olan şəxslərə orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə müvafiq təminat xərcliyinin - 60 faizi, orqanizmin funksiyalarının 61 - 80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 55 faizi, orqanizmin funksiyalarının 31 - 60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 35 faizi miqdarı həcmində əmək pensiyası ödənilir.

Digər dərəcələr arasında 20 faiz fərq olduğu halda, orqanizmin funksiyalarının 61 - 80 faiz və 31 - 60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə pensiya məbləği hesablanan təminat xərcliyi arasında 5 faiz fərq mövcuddur. Eyni zamanda, müharibə ilə əlaqədar əlilliyi olan hərbi qulluqçuların orqanizminin funksiyalarının 81 - 100 faiz pozulmasına görə əlilliyi müəyyən edildikdə, müvafiq təminat xərcliyinin 100 faizi, 61 - 80 faiz pozulmasına görə 80 faizi həcmində əmək pensiyası ödənilir. Burada isə şəxslərə pensiya məbləği hesablanan təminat xərcliyi arasında 20 faiz fərq var.

Qanunvericilikdə aparılan dəyişikliklərdən sonra bu sosial fərq aradan qalxmış olacaq və ədalətin və analoji yanaşmanın tətbiq edilməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara müvafiq təminat xərcliyinin 70 faizi həcmində olmaqla bərabər əmək pensiyası ödənilməsi mümkün olacaq. Nəticədə hərbi xidmət zamanı xəstələnmə səbəbindən sağlamlıq imkanı məhdudlaşan keçmiş hərbi qulluqçuların peniyası onların təminat xərclərinin 60 faizindən deyil, 70 faizindən hesablanacaq ki, bu da onların pensiyasının ən azı 10 faiz artmasına səbəb olacaq.

Yeni dəyişiklik pro-aktiv, yəni elektron pensiya təminatının daha da gücləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Hərbçilərin pensiya təyinatı ilə bağlı elektron sistem üzərindən hansısa sənədləri tərtib etməsinə, müfaviq sənədlərlə bağlı arayışlar almasına heç bir ehtiyac və zərurət olmayacaq. E-sistem özü baza məlumatlarında onlar barəsində toplanmış bütün informasiyaları emal edərək adiyyatı qurumun hesabına inteqrasiya edir ki, hərbçilərin hansısa prosedurları doldurmasına ehtiyac qalmır. Bu isə təminatla bağlı proseslərin şəfaflığının təmin olunması, qısa zamanda pensiya təminatı üçün imkanlar deməkdir.

Hərbçilərin pensiya təminatının yaxşılaşdırılması dövlətin yürütdüyü sosial siyasətin əsas prioritetlərindən biridir və davamlı olaraq bu sosial kateqoriyanın rifahı üçün addımlar atılır. Bir neçə ay əvvəl də onların



pensiya təminatı ilə bağlı mühüm qərarlar qəbul edilməsi də bunu təsdiqləyir. Belə ki, 2024-cü il yanvarın 1-dən qüvvəyə minən "Hərbi qulluqçuların statusu haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda edilmiş dəyişikliklərə əsasən, hərbçilərin pensiyaya çıxma müddəti 20 ildən 25 ilə qaldırılıb və dəyişikliklər də onların gələcək sosial təminatlarının daha da yaxşılaşdırılmasını nəzərdə tutur. Belə ki, pensiya təminatı ilə bağlı sosial normaların əmsalları artırılıb və hərbi qulluq stajına görə əlavənin faizi 50-dən 65-ə qaldırılıb. Bu o deməkdir ki, hərbçilər pensiyaya çıxanda qulluq stajına görə əlavənin 50 faizi götürülərək pensiya məbləği hesablanırdısa, yeni dəyişikliklərdən sonra bu rəqəm 65 faiz təşkil edir. Nəticədə indiki məbləğə götürdükdə onun pensiyasında ən azı 250-300 manat fərq olacaq. Habelə, 25 ildən yuxarı hərbi xidmətin hər ilinə görə, təminat xərcinin əmsalı digər qurumlarda 2 faiz olmasına baxmayaraq, hərbi qulluqçular üçün 3 faiz əmsalla götürülür. Bundan başqa, mülki işlərlə bağlı stajları olan hərbi qulluqçuların da pensiyasına həmin dövrün hər ili üçün 1 faiz əlavə əmsal hesablanır.

Dəyişikliklərə əsasən, 2024-cü il yanvarın 1-dək xidmət müddətinin ən azı 17 il tamam olan hərbçilər 20 il tamam olduqda pensiyaya çıxa biləcəklər. Yəni onların 25 il xidmət müddəti keçməsinə ehtiyac olmayacaq. Əgər onlar 25 il qulluq edib daha yüksək məbləğ ilə pensiya hüququ qazanmaq istəsələr, müvafiq qurumlar onların bu seçimini nəzərə alaraq əlavə xidmət keçməsinə də şərait yaradacaq.

Onu da nəzərə almaq lazımdır ki, "Hərbi qulluqçuların statusu haqqında" qanuna müvafiq dəyişikliklər, təkcə, xidmət müddətinin artırılmasını nəzərdə tutmur, hərbçilərin sosial hüquqları ilə bağlı əlavə imtiyazları da özündə əks etdirir. Mövcud qanuna əsasən, ali təhsil müəssisələrində demək olar ki, qiyabi təhsil mövcud olmadığından Silahlı Qüvvələrin peşəkar, bilikli və bacarıqlı hərbi qulluqçular mülki ali təhsildən kənarda qalır, ancaq dəyişiklikdən sonra, hərbi qulluqçular müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş icazəsi olduqda onlar mülki təhsil müəssisələrində təhsil ala biləcəklər.

Göründüyü kimi "Əmək pensiyaları haqqında" qanunlara edilən dəyişikliklərin hər biri optimallaşdırıcı xarakter daşımaqla hərbçilərin gələcək sosial rifahı üçün əlavə təminatlar verir.

***ELBRUS***

# NATO müharibəyə qoşulacaqmı?

## Macarıstandan “hələ vaxt var” xəbərdarlığı

Avropa İttifaqı (Aİ) və Şimali Atlantika Alyansı (NATO) daxilində müxtəlif məsələlərə münasibətdə fikir ayrılığı dərinləşir. Bu, xüsusilə də sonu görünməyən Rusiya-Ukrayna müharibəsinə münasibətdə daha qabarıq şəkildə nəzərə çarpır. Macarıstanın fərqli yanaşması buna misaldır. Bu ölkə rəsmiləri NATO-nun Rusiya-Ukrayna müharibəsində mümkün iştirakına etirazlarını bildirirlər. Bu günlərdə Macarıstanın Baş naziri Viktor Orban “Mandiner” jurnalına müsahibəsində ölkəsinin fərqli yanaşmasını növbəti dəfə diqqətə çatdırıb.

### NATO-nun müharibəyə qoşulmaq riskləri

Rusiya-Ukrayna müharibəsinin ilkin fazasında Avropa İttifaqına və NATO-ya daxil olan ölkələr müharibədə birbaşa iştiraklarını istisna edirdilər. Kollektiv Qərb missiyasını Ukraynaya silah-sursat göndərməkdə, maliyyə vəsaitləri ayırmaqda və siyasi dəstək verməkdə görürdü. Qərbdən gələn bəyanatlarda bildirilirdi ki, Rusiyaya qarşı “yorucu müharibə” başlayıb. Ümumi qənaət belə idi ki, siyasi təzyiqlər və bir neçə mərhələdə tətbiq edilən sanksiyalar Rusiyanı taqətdən salacaq və geri çəkilməyə məcbur edəcək. Ancaq vaxt uzansa da, gözləntilər özünü doğrultmur ki, bu da Qərb dairələrində narahatlıq yaradır.

Son günlərdə Aİ və NATO üzvü olan ayrı-ayrı ölkələrin müharibənin əvvəlində tutduqları mövqedən geri çəkildikləri aydın şəkildə sezilir. O cümlədən siyasi bəyanatların ritorikası sərtləşdirilib. Ukraynaya hərbi dəstəyin miqyasının genişləndiriləcəyi bildirilir. Bəzi ölkələr Ukrayanaya tədarük etdikləri silahlarla Rusiya ərazilərinin vurulmasına razılıq veriblər.

Eyni zamanda, NATO-nun müharibədə birbaşa mümkün iştiraki ilə bağlı xəbərlər dövriyyəyə buraxılır. Əlbəttə, belə xəbərlərin yayılmasında məqsədlərdən biri nəbz yoxlamaq və ictimai rəy formalaşdırmaqdır. Ancaq konkret müharibə hazırlıqları aparıldığı da acı reallıqdır. Yayılan son məlumatlarda bildirilir ki, NATO ölkələri Rusiya ilə birbaşa münaqişə vəziyyətində qoşunları ABŞ-dan Avropaya sürətlə köçürmək planı hazırlayır. “The Telegraph” qəzetində dərc olunan məqalədə qeyd olunub ki, NATO Avropada Rusiya ilə böyük müharibə baş verəcəyi təqdirdə amerikalı hərbçiləri və zirehli texnikanı tez bir zamanda cəbhə xəttinə yeritmək üçün çoxsaylı “yerüstü dəhlizlər” üzərində işləyir.

ABŞ silahlı qüvvələri əvvəlcədən müəyyən edilən beş limandan birinə, daha sonra isə logistik marşrutlar üzrə təyinat məntəqələrinə çatdırılacaq. Nəşrin mənbələrinin məlumatına görə, NATO-nun hazırkı planları Amerika qoşunlarının Niderlanda, oradan isə dəmir yolu ilə Almaniyadan keçməklə Polşaya daşınmasını nəzərdə tutur. Alyans bu məqsədlə Norveç, İtaliya, Yunanıstan, Türkiyə, İsveç, Finlandiya və Baltikyanı ölkələrin limanlarından da istifadə etməyi planlaşdırır.



Dünən isə Finlandiyaya səfər çərçivəsində bu ölkənin Prezidenti Aleksandr Stubb ilə keçirdiyi birgə mətbuat konfransında NATO-nun Baş katibi Yens Stoltenberq bildirib ki, NATO-nun Ukraynaya qoşun yeritmək planı yoxdur. Stoltenbergin mövqeyini təkrarlayan Stubb Finlandiyanın da Ukraynaya qoşun göndərmək planının olmadığını söyləyib. O, Finlandiyanın müttəfiqləri ilə birgə Ukraynaya dəstək məsələsinə dair müzakirələr aparıldığını vurğulayıb.

Mümkün NATO-Rusiya qarşıdurmasının necə böyük fəsadlara yol açacağını təsəvvür etmək çətin deyil. Buna görə də belə bir ehtimalın qarşısını bəri başdan almaq lazımdır. Xatırladaq ki, bundan əvvəl Macarıstanın xarici işlər naziri Peter Szijarto NATO-nun hazırda Rusiya Federasiyası ilə silahlı münaqişəyə hazırlaşdığı barədə xəbərdarlıq etmişdi. O bildirib ki, beynəlxalq ictimaiyyətin NATO ilə Rusiya arasında müharibənin qarşısını almaq üçün “hələ vaxtı var”. “Macarıstan Ukraynada hərbi əməliyyatların genişlənməsinə və qaçılmaz dünya müharibəsi təhlükəsinə səbəb ola biləcək hər hansı təkliflərə qarşı çıxacaq”, - deyə Peter Szijarto “Facebook” hesabında yaydığı videomüraciətində bildirib.



### Budapeştdən kəskin etiraz

Baş nazir Viktor Orban ölkəsinin narahatlığını yenidən gündəmə gətirib. “Gələcək baş katiblə razılaşmaq istərdik ki, NATO üzvü olsaq belə, Ukraynada ruslara qarşı NATO əməliyyatlarında iştirak etməyəcəyik. Biz üzvlüyümüzü qoruyub saxlayacağıq, lakin NATO ərazisindən kənarda hərbi fəaliyyətlərdə iştirak etmək istəmirik və buna imkanımız olmalıdır. Biz bunun siyasi cəhətdən məqbul, təqdim edilə bilən mövqe kimi elan olunmasını gözləyirik”, - deyə o, müsahibəsində bildirib.

Viktor Orban qeyd edib ki, bu məsələdə Macarıstan NATO-nun baş katibi postuna namizəd, Niderlandın baş naziri səlahiyyətlərini icra edən Mark Rutte ilə razı deyil: “Biz bütün üzv dövlətlərə alyansın ərazisindən kənarda hərbi əməliyyatlarda iştirak etmək öhdəliyi qoyan NATO-nun baş katibini dəstəkləyə bilmərik”.

O, həmçinin xatırladıb ki, rəsmi Budapeşt Macarıstanın diz çökdürülməsini və Avropa İttifaqından çıxarılmasını təklif edən Ruttenin namizədliyinə qarşıdır. Qeyd edək ki, Macarıstan alyansın Baş katibi vəzifəsinə namizəd kimi Rumıniya prezidenti Klaus İohannisi dəstəkləyir. Stoltenberqin səlahiyyət müddəti isə oktyabrın 1-də başa çatacaq.

Təbii ki, Macarıstanın yüksək səviyyəli rəsmilərinin bu məzmunlu bəyanatlar vermələri Aİ və NATO daxilində anlayışla qarşılanmır. Son vaxtlarda hər iki qurumda Macarıstana hansı yollarlasa təzyiqlər göstərməyə, bu ölkəni cəsarətli mövqeyindən çəkindirməyə çağırışlar edilir. Bu çağırşların səsləndirilməsi isə özlüyündə Qərb təsisatlarının selektiv yanaşmalarını bir daha nümayiş etdirir.

***MÜBARİZ***

# Fransaya olar, Gürcüstana yox?

## Tbilisi sanksiyalarla üz-üzə

Gürcüstan parlamentinin “Xarici təsirin şəffaflığı haqqında” qanunu qəbul etməsindən sonra ölkə daxilində buna qarşı ciddi etirazlar baş qaldırıb. Lakin sözügedən qanuna etirazlar yalnız ölkə daxilindəki müxalifət qüvvələrindən və qeyri-hökumət təşkilatlarının təmsilçilərindən gəlmir. Qanunun qəbuluna təkid edən və buna nail olan hakim “Gürcü Arzusu-Demokratik Gürcüstan” Partiyasının və Gürcüstanın siyasi rəhbərliyinin ünvanına, həmçinin Qərbin ayrı-ayrı ölkələrindən və təsisatlarından da sərt qınaqlar gəlməkdədir. Hətta ölkə sanksiyalarla gədələnir. Bu istiqamətdə artıq ilk addım atılıb. Belə ki, suveren dövlət olan Gürcüstana qarşı sanksiyaların tətbiqinə birinci olaraq ABŞ start verib.

### ABŞ-dan Gürcüstana viza sanksiyaları

Amerika Birləşmiş Ştatları Gürcüstanın hakim “Gürcü Arzusu-Demokratik Gürcüstan” Partiyasının rəhbər şəxslərinə və onların ailə üzvlərinə, eləcə də bəzi şəxslərə viza sanksiyaları tətbiq edir.

Bu barədə ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller brifinqdə açıqlayıb.

Bildirilib ki, bu, viza məhdudiyyətlərinin ilk paketidir və buraya Gürcüstanın hakim partiyasının üzvləri, deputatları, hüquq-mühafizə orqanlarının əməkdaşları və fiziki şəxslər daxildir: “Biz ümid edirik ki, Gürcüstan liderləri öz hərəkətlərini yenidən nəzərdən keçirəcək və ölkələrinin uzun müddətdir bəyan etdiyi demokratik və Avro-Atlantik istəklərinə doğru irəliləmək üçün addımlar atacaqlar. Lakin bunu etməsələr, Birləşmiş Ştatlar əlavə tədbirlər görməyə hazırdır”, - deyə, M.Miller vurğulayıb.

### Gürcüstan xarici təsirlərdən qurtulmaq istəyir

“Gürcü Arzusu-Demokratik Gürcüstan” Partiyasının təmsilçiləri bəhs olunan qanunun qəbulunun zəruriliyini ölkənin milli maraqlarının qorunması ilə bağlı olduğunu bildirirlər. Verilən məlumatlara görə parlament müvafiq qanunu qəbul edərkən müstəqillik prinsiplərinə əsaslanıb. Hansısa bir qanunu qəbul etmək suveren dövlətin müstəsna hüququdur. Gürcüstan üçün isə bu, bir milli təhlükəsizlik məsələsidir. Vəziyyəti kritik dərəcədə gərginləşdirən o amildir ki, Gürcüstan kimi kiçik ölkədə qeyri-hökumət təşkilatlarının sayı yağışdan sonra göbələk kimi artaraq 10 mini ötüb. Məsələ heç də sayda deyil. İş ondadır ki, vətəndaş cəmiyyəti təsisatlarının əksəriyyəti xarici maliyyə mənbələrindən asılı vəziyyətdədir. Təbii ki, Gürcüstana maliyyə vəsaitləri ilə yanaşı, həm də xüsusi tapşırıqlar, siyasi sifarişlər ünvanlanır. Vətəndaş cəmiyyəti təsisatları isə maliyyə qaynaqlarının davamlılığını təmin etmək üçün həmin sifarişləri yerinə yetirmək məcburiyyətindədirlər. Aparılan təhlillər təsdiqləyir ki, xarici təsir altında olan qurumların fəaliyyəti əksər hallarda milli maraqlara uyğun gəlmir, hətta ölkənin mənafeyinə zərbə vurur. Buna görə də Gürcüstan hakimiyyəti xarici təsirlərdən qurtulmaq istəyir.

Hakim partiya dövlət üçün getdikcə daha ciddi təhdidə çevrilən prosesin qarşısını almağın yeganə yolunu müvafiq qanunun qəbul edilməsində gördü. Parlamentdə qəbul olunan “Xarici təsirlərin şəffaflığı haqqında” qanuna əsasən, illik gəlirinin 20 faizdən çoxunu xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan, Gürcüstan vətəndaşı olmayan qurum və şəxslərdən əldə edən və dövlət tərəfindən təsis edilməyən media orqanları və QHT-lər Gürcüstandakı “xarici gücün maraqlarını güdən təşkilat” kimi reyestrdən keçməli olacaqlar. Bunu etməyənləri isə sərt cərimələr gözləyir.





### Oxşar qanun Fransada da qəbul olunub

Bu günlərdə oxşar qanun Fransada da qəbul olunub. Belə ki, Fransa Senatı xarici müdaxilənin qarşısının alınmasına dair 4 maddədən ibarət qanunu qəbul edib. Bununla bağlı məlumat Senatın saytında yerləşdirilib. Həmin məlumatda bildirilir ki, qanunun birinci maddəsində Fransanın ictimai həyatında iştirak edən aktorlarının qeydiyyatı və uçotunun aparılması tələb edilir. Layihənin müəllifləri analoji qanunların ABŞ və Böyük Britaniyada daha əvvəl qəbul edildiyini bildiriblər.

Qanunun ikinci maddəsinə görə, hökumət ildə bir dəfə parlamentə xarici təhdidlərlə bağlı hesabat verməlidir.

Üçüncü maddə xüsusi xidmət orqanlarının səlahiyyətlərinin artırılmasını, texniki imkanları genişləndirməyi, həmçinin rəqəmsal məlumatların avtomatik emalını nəzərdə tutur.

Dördüncü maddədə xarici təsirlə mübarizə üçün monetar qanunvericiliyin dəyişdirilməsi, hesabların dondurulması prosedurunun əhatə dairəsinin genişləndirilməsi və maliyyə sanksiyaları nəzərdə tutulur.

Qeyd edək ki, yeni qanun həm də Fransanın dənizaşırı ərazilərində, xüsusən də Yeni Kaledoniyada azadlıq hərəkatını boğmaq məqsədi güdür.

### Aİ niyə susur?

Bir sıra Qərb ölkələri və təsisatları Gürcüstanda xaosun dərinləşməsi üçün sözün əsl mənasında dəridən-qabıqdan çıxırlar. Məsələn, Avropa Şurasının Venesiya Komissiyası Gürcüstanın “Xarici təsirin şəffaflığı haqqında” qanunu ləğv etməli olduğunu bildirib . Bu günlərdə dərc etdiyi təcili rəyində Venesiya Komissiyası “əsaslı qüsurlara malik qanunun” birləşmək və ifadə azadlığı, şəxsi toxunulmazlıq hüququ, ictimai işlərdə iştirak hüququ və ayrı-seçkiliyin qadağan edilməsi baxımından əhəmiyyətli mənfi nəticələrə səbəb olacağını bildirib.

Qəribədir ki, Gürcüstan hakimiyyətinə etiraz edən ölkələrdən biri də oxşar məzmunlu qanunu qəbul edən Fransadır. Rəsmi Paris ilk gündən Tbilisidəki etirazçıları dəstəkləyib. Bununla kifayətlənməyən Fransa siyasətçiləri öz çevrələrindəkilərlə də ciddi iş aparırlar

Fransanın mövqelərinin kifayət qədər güclü olduğu Avropa İttifaqının bəzi üzvləri - Çexiya, İsveç, Hollandiya və Estoniya Gürcüstan parlamentinin bəhs olunan qanunu qəbul etməsi ilə əlaqədar Avropa Komissiyasına bu dövlətə qarşı sanksiyalar tətbiq etməli olduğunu bildirilər. Tətbiq üçün təklif olunan tədbirlər arasında qanun layihəsinin müəlliflərinə qarşı məqsədyönlü sanksiyalar, Aİ fondlarından vəsaitlərin bir hissəsinin dondurulması və Gürcüstan vətəndaşları üçün vizasız rejimin ləğvi də var. Məhdudlaşdırıcı tədbirlərin yekun dəsti, eləcə də onların tətbiqi məsələsi Aİ ölkələrinin xarici işlər nazirləri iyunun 24-də Lüksemburqda keçiriləcək görüşündə müzakirə olunacaq.

Gürcüstanda və Fransada qəbul olunan qanunlar oxşar məzmuna malikdirlər. Bu məqamda sual yaranır: Bəs niyə Fransaya olar, Gürcüstana yox? Niyə Qərb təsisatları və ölkələri oxşar ittihamlarını Yelisey Sarayına da ünvanlamırlar?

***Mübariz FEYİZLİ***

# Vətəndaş cəmiyyəti...

## Dövlətin vacib dayaqlarından biri

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**

Müstəqilliyimiz yenidən bərpa edildikdən sonra Azərbaycan demokratik cəmiyyət quruculuğu sahəsində böyük inkişaf yolu keçib. Aparılan mütərəqqi islahatlar nəticəsində ölkəmizdə vətəndaş cəmiyyəti, eləcə də demokratik və hüquqi dövlət quruculuğu istiqamətində yüksək səviyyədə nailiyyətlər əldə edilib. Təbii ki, bu nailiyyət də xalqımızın, cəmiyyətimizin firavan, xoşbəxt gələcəyi üçün təminatdır.

Hüquqi dövlət quruculuğunun ayrılmaz hissəsi olan vətəndaş cəmiyyəti dövlətçiliyin əsaslarının möhkəmlənməsi üçün əvəzedilməzdir. Çünki dövlətçiliyin əsaslarının zəifləməməsi üçün hüquqi bazanın mükəmməl formada hazırlanması, qanunların qəbul edilməsi ilə yanaşı, vətəndaş cəmiyyətinin hərtərəfli fəaliyyəti də, vətəndaş aktivliyi də olmalıdır. Hüquq normalarının həyata keçirilməsini təmin edən, hüququ qoruyan dövlətdir və dövlətin hüquqa ehtiyacı olduğu danılmazdır. Ona görə ki, hüquqa arxalanmadan normal və səmərəli fəaliyyətdən danışmaq mümkün deyil. Əbəs yerə deyil ki, dövlət aparatının fəaliyyəti qanunvericiliyin, hüququn möhkəmləndirilməsini tələb edir.

Konstitusiya Araşdırmaları Fondunun rəhbəri Əliməmməd Nuriyev "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, hüquqi və demokratik cəmiyyətlərdə əsas prinsip vətəndaş cəmiyyətinin ictimai və dövlət həyatında rolunun fəallaşdırılması əsas götürülür: "Vətəndaşların hər biri də öz növbəsində üzərinə düşən məsuliyyəti dərk etməli, əsas insan və vətəndaş hüquqlarına hörmətlə yanaşmalı, dövlət inistitutlarının sarsılmasına səbəb ola bilən, ölkədə anarxiya yarada bilən, qeyri-konstruktiv davranışlardan uzaq olmalıdır. Məhz qarşılıqlı etimad və məsuliyyət gücləndiyi təqdirdə, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun arzu olunan inkişaf səviyyəsi haqqında danışmaq olar".

Ekspert qeyd etdiyi kimi, dövlət vətəndaş qarşısında məsuliyyət daşıdığı kimi, vətəndaş da dövlət qarşısında eyni dərəcədə məsuliyyət daşımalıdır və bu, hər bir vətəndaşın borcu hesab olunur: "Məhz dövlətin və vətəndaşların bir-birinə təsir imkanları güclü olmalıdır ki, qarşılıqlı məsuliyyət qorunmuş olsun. Nəzərə almaq lazımdır ki, cəmiyyət, insanlar arasında yaranan davranış qaydaları ilə idarə olunur və davranış qaydalarının bir qisminin dövlət tərəfindən müəyyən olunması, eləcə də qanunlarda öz əksini tapması heç də təsadüfi deyil. Unutmaq lazım deyil ki, qanunların pozulmasına görə məsuliyyət daşınır və vətəndaşlar bunu nəzərə almalıdırlar. Hər bir insanın yalnız öz şəxsiyyətinin tam inkişafı mümkün olan cəmiyyətin qarşısında məsuliyyət daşıdığı barədə İnsan Hüquqları haqqında "Ümumi Bəyannamənin" 29 maddəsində qeyd olunur. Məsuliyyətlə yanaşı, vətəndaşların əsas vəzifələri də Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapıb. Konstitusiyanın 72-ci maddəsində qeyd olunur ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır".

Ə.Nuriyevin sözlərinə görə, dövlət cəmiyyətlə, cəmiyyət də öz növbəsində dövlətlə sintez şəklində olmalıdır ki, köklü məsələlər öz həllini tapa bilsin, demokratik cəmiyyət formalaşsın: "Etiraf etmək lazımdır ki, demokratik cəmiyyətin formalaşmasında, müxtəlif dövlət əhəmiyyətli layihələrdə, qanunvericiliyin təşkilində, ictimai maarifləndirmədə vətəndaş cəmiyyətlərinin rolu əhəmiyyətli dərəcədədir. İnsanların maariflənməsi, konkret sahələr üzrə hesabatların hazırlanması, təkliflərin verilməsi istiqamətində vətəndaş cəmiyyətinin fəaliyyəti olduqca vacibdir. Ona görə də cəsarətlə deyə bilərik ki, hüquqi dövlət və demokratik cəmiyyətin qurulmasında vətəndaş cəmiyyətlərinin rolunu danmaq mümkün deyil və hər bir hüquqi dövlətdə vətəndaş cəmiyyətinin olması qaçılmazdır.

Qanunları yüksək səviyyədə işləyən dövlətlərdə, eləcə də insanların firavan yaşamasına, dövlətin tanınmasına, inkişaf etdirilməsinə, öz vətəndaşı, xalqı üçün çalışan dövlətlərdə vətəndaş cəmiyyətinin çox sürətlə inkişaf etdiyini görürük. Məhz bu baxımdan bizim ölkəmizdə də eyni şəkildə vətəndaş cəmiyyətinin daim inkişaf etməkdə olması heç də təəccüblü deyil və tamamilə başadüşüləndir. Ölkəmizdə vətəndaş həmrəyliyi, vətəndaş birliyi, dövlət və vətəndaş arasındakı münasibətləri yüksək səviyyədə olduğu zərrə qədər şübhə doğura bilməz və hər birimiz buna əminik.

Göründüyü kimi, hüquqi dövlət və demokratik cəmiyyət quruculuğunda vətəndaş cəmiyyəti dövlət üçün vacib dayaq hesab olunur".

*Yeganə BAYRAMOVA*

# Erməni kilsəsi vergi verəcək

## Paşinyan kilsənin zərərsizləşdirməyin yollarını tapıb

Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası ilə bağlı razılığın əldə olunması və Qazax rayonunun 4 kəndinin geri qaytarılması erməni cəmiyyətində revanşist qüvvələri fəallaşdırıb. Bu qüvvələr vəziyyətdən sui-istifadə edərək Paşinyan hakimiyyətini devirməyə çalışırlar. Etiraz aksiyalarına Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri olmuş arxiyepiskop Baqrat Qalstanyan başçılıq edir. Keşiş Baqrat baş nazir vəzifəsinə namizədliyini irəli sürdüyü üçün dini vəzifələrini "dondurub".

Keşiş mayın 27-də Ermənistanda vətəndaş itaətsizliyi elan etsə də, polis iğtişaş törədənlərə qarşı sərt tədbirlər gördü, xeyli sayda etirazçı həbs olundu. Artıq etiraz aksiyaları getdikcə zəifləyir, Baqratın çağırışına əməl edənlərin sayı da azalır. Keşişin çağırışı ilə İrəvanda bir sıra küçələr, o cümlədən magistral yollar bağlanılsa da, polis qısa zamanda yolların açılmasını təmin edib. Üstəlik, Ermənistanın baş naziri Nikol Paşinyan hazırda ölkə müxalifətinin "birinci siması" kimi görünən keşiş Baqrat Qalstanyanla görüşməkdən də imtina edib və bu barədə suala zarafatla cavab verib: "Vətəndaşlarla və müxtəlif insanlarla görüşlər keçirirəm, mənimlə görüş prosedurları var, mənimlə görüşmək üçün növbəyə yazılmaq istəyənlər bunu pulsuz edə bilərlər".

Bununla belə, keşiş Baqrat, bütövlükdə isə erməni kilsəsi Paşinyan hakimiyyəti üçün başağrısı olaraq qalır. Çünki erməni keşiş regionlarda da etiraz aksiyalarını davam etdirməyə çalışır, əhalini iyunun 9-a təyin olunmuş mitinqdə iştiraka çağırır. Əlbəttə, keşiş Qalstanyanın bu prosesdə təkbaşına deyil, başqalarından dəstək aldığı məlumdur. Ona dəstək verənlər arasında kilsənin rəhbərliyi öndə gedir. Ona görə də, Paşinyan kilsəyə qarşı adekvat addımlar atmaq qərarına gəlib. Hələ bir müddət öncə Paşinyan etiraf etmişdi ki, bütün ermənilərin katolikosu II Qaregin bu gün siyasi hərəkata rəhbərlik edir, hərəkatın benefisiarı isə Robert Köçəryandır: "Erməni keşiş Baqrat Qalstyanın rəhbərlik etdiyi "Vətən naminə Tavuş" hərəkatının məqsədi onun sələflərini hakimiyyətə qaytarmaqdır. Hələ 2021-ci ildə Robert Köçəryan kilsənin köməyi ilə hakimiyyətin dəyişməsi ssenarisini təqdim edib". Nəzərə alaq ki, Qalstanyan da çıxışlarının birində II Qareginin xeyir-duası ilə dindarların etiraz aksiyasına qoşulduğunu bildirmişdi. Hadisələr göstərir ki, erməni din xadimləri baş nazir Nikol Paşinyanın sərhədlərin delimitasiyasına dair razılıqdan imtinaya məcbur etmək üçün aktivləşib. Buna nail olmadıqda isə baş naziri vəzifəsindən devirməyə çalışırlar. Bu yaxınlarda bütün ermənilərin katolikosu II Qareginin Böyük Kilikiya Evinin katolikosu I Aramla telefon danışığında da bu məsələ müzakirə mövzusu olub.



Siyasi revanşist müxalifətin erməni cəmiyyətində ciddi nüfuzu olmadığı üçün Paşinyan hakimiyyətinə təhlükə törətmir. Bu səbəbdən hökumətə qarşı kilsə önə çıxıb. Ona görə də, N.Paşinyan kilsəni də zərəsizləşdirmək üçün yollar axtarır. Bu yollardan biri kilsənin vergiyə gəlb olunmasıdır. N.Paşinyan kilsə gəlirləri sferasında "kölgəni" aradan qaldırmağa və şəffaflıqla əvəz etməyə çağırıb. Hökumətin kilsə gəlirlərinin vergiyə cəlb edilməsi ilə bağlı təkliflə çıxış etdiyini deyən baş nazir dövlətin öz gəlirindən vergiləri kilsəyə qaytarmağa və onun tarixi-mədəni irsi olan abidələrinin bərpasını maliyyələşdirməyə hazır olduğunu qeyd edib. Kilsə isə bu təklifi rədd edib, çünki belə olduğu halda dövlət onun gəlirlərinə nəzarət imkanı əldə edəcək.

Ermənistan parlamentinin spikeri Alen Simonyanın da bu mövzuda fikirləri maraq doğurur. O, kilsəni ticarət meydanına çevirdiyi üçün ruhani rəhbərliyi tənqid edib: "Hisslərimiz və tariximizlə oynamağı dayandırın. Və onsuz da siyasətlə məşğul olub, diasporadan pul yığıb, şam, koka-kola, şərab satıb, restoranlara sahib olub, vergi ödəməyib. Mən başa düşmək istəyirəm ki, niyə əli öpülən din xadimi vergi ödəyən sadə iş adamından üstün olmalıdır". Bu açıqlama isə tərəflər arasında qarşıdurmanı daha da artırıb. Görünən odur ki, hakimiyyət kilsənin maliyyə resurslarına tam nəzarət etmək istəyir. Hakim "Mülki müqavilə" partiyanın təklifinə əsasən, Eçmiədzin şam satışından, ayinlərdən, vəftizdən (suya salınma), toydan və s. mərasimlərdən əldə etdiyi gəlirdən mənfəət vergisi ödəməlidir. Məsələn, kilsənin idxal etdiyi mal və məhsullar xeyriyyəçilik kimi təsnif edilir ki, vergi və rüsumlardan azad sayılır. Eyni zamanda, kilsə daşınmaz əmlak vergisindən də azad edilib. Hakimiyyət isə kilsə rəhbərliyi üzərində mütləq qələbə qazanmaq və onu nəzarət altına almaq üçün bütün bu imtiyazları ləğv etməyi planlaşdırır. Ehtimallar var ki, parlamentin növbəti sessiyasında kilsəyə qarşı qanun layihəsi təklif edilə bilər. Bu istiqamətdə işlər başlayıb və müəyyən baza formalaşdırılır. Əgər həqiqətən də, belə bir qanun parlamentin müzakirəsinə çıxarılsa, qəbul olunması ehtimalı yüksəksir. Çünki Paşinyanın liderlik etdiyi partiya parlamentdə səs çoxluğuna sahibdir. Bu isə kilsənin, ümumiyyətlə, zəifləməsi və maliyyə imkanlarının əlindən çıxması ilə nəticələnəcək.

Digər bir məlumata görə, baş nazir Paşinyan Ermənistan Ədliyyə Nazirliyinə Erməni Apostol Kilsəsinin fəaliyyətinin rəsmi dayandırılması üçün hüquqi baza və lazımi sənədləri hazırlamağı tapşırıb. Buna səbəb kilsənin kütləvi etiraz aksiyalarının təşkili və sabitliyin pozulması ilə bağlı hərəkətlərinin konstitusiyaya uyğunluğunun yoxlanılmasıdır. Bu məlumat hələ ki, rəsmi təsdiqini tapmayıb, lakin baş verən ziddiyyətlər fonunda real görünə bilər. Hakimiyyətin kilsəyə qarşı fəaliyyətində din xadimləri barədə kompromat materialların mətbuat vasitəsilə cəmiyyətə ötürülməsi, "Sərdarapat" abidə kompleksinə girişin qadağan edilməsi də var. Bütün bunlar onu göstərir ki, Paşinyan onu devirməyə cəhd edən erməni kilsəsini tezliklə zərərsizləşdirməyə çalışır.

*Nardar BAYRAMLI*

# Gilənar qırğını

## Anton Pavloviç Çexovun "Albalı bağı" pyesi haqqında

Çexov təkcə nəsrdə yox, dramaturgiya sahəsində də inqilab eləmiş yazıçıdır. O, Şekspirdən sonra pyesləri ən çox səhnələşdirilən dramaturq sayılır. Şekspirin otuz yeddi dram əsərinin müəllifi olduğunu, Çexovunsa dünyada əsasən dörd pyeslə tanındığını nəzərə alsaq, onu siyahıda Şekspirdən də qabağa keçirmək olar.

"Yeni dram"ın İbsendən başlanan yolu Çexovda zirvəyə çatıb. O, klassik dramaturgiyanın ta antik dövrdən bəri qüvvədə olan bütün ehkamlarını, kanonlarını söküb dağıdıb, yerində yenilərini yaradıb. Onun pyesləri dünya dramaturgiyasının, teatr sənətinin sonrakı inkişafına, o cümlədən absurd teatrın yaranmasına həlledici təsir göstərib. Möhtəşəm dördlüyün ("Qağayı" - 1895; "Vanya dayı" - 1896; "Üç bacı" - 1900; "Albalı bağı" - 1903) ilk qaranquşu olan "Qağayı" pyesinin 1896-cı ildə Peterburq teatrında nümayiş olunmuş premyerası iflasa uğrasa da, ondan sonraklı yüz neçə ildə Çexovun dram əsərləri dünya teatrının səhnəsindən bir gün belə düşməyib.

***

1903-cü ildə tamamlanmış "Albalı bağı" böyük dramaturqun sonuncu pyesidir. Müəllifin təsbitinə görə, bu əsər janr etibarilə komediyadır. Ancaq klassik kanonlarla yanaşsaq, pyes komediyadan çox tragediyaya bənzəyir, hərçənd onu klassik mənada faciə də saymaq olmaz. Mütəxəssislər "Albalı bağı"na filoloji yanaşmada daha çox dram janrının üstündə dururlar, ancaq bu təsbitin özü də mübahisəlidir.

Həm üslub, həm forma, həm də kompozisiya baxımından bu əsər ənənəvi dramaturgiyadan kəskin fərqlənir. Burada personajlar müsbətə-mənfiyə bölünməyiblər, konflikt, intriqa yoxdur, eləcə dairəvi süjet var. baş qəhrəman yoxdur, başlıca qəhrəmanlar var, müəllifin müdafiəsinə qalxdığı vahid ideya yoxdur, bir-biriylə dinc, yanaşı, yaşayan düşmən ideyalar var, daha doğrusu, bu ideyaların yedəyində gedən, onların təcəllası olan adamlar var. Burada faciəylə komediya o qədər qaynayıb-qarışıb, o qədər iç-içədir ki, bu əsəri tragikomediya adlandırmaq da çətindir; pyesdəki hər bir personaj komedik duruma düşmüş tragik obrazdır.

Çexovun dramlarında hadisələr əsasən pərdə arxasında baş verir, səhnədə biz onların əks-sədasını eşidirik. Guya təsadüfən dildən çıxan replikaların, tez-tez təkrarlanan pauzaların mənasını, eləcə də filan ikinci dərəcəli obrazın əsərə nədən ötrü salındığını hər saat anlamaq olmur. Bu cəhətlərinə görə mütəxəssislər Çexov dramaturgiyası haqqında "sualtı axın" ifadəsini işlədirlər - yəni üzdə görünən süjetin üzdən baxanda görünməyən mahiyyəti, alt qatı da var, əsl baş verənlər orada, o qatda baş verir (Bu bənzətmə sonralar Heminquey nəsrinə şamil olunan "aysberq prinsipi"nə çox yaxındır). Burada obrazlar elə bil bir-biriylə yox, öz-özünə danışır. Sualla cavab çox vaxt bir-birinə uyuşmur, bir-birini tamamlamır. Adamlar bir-birinin iç dünyasından xəbərsizdir, hamı yiyəsiz, hamı başlı-başınadır. Hər kəs özgənin dərdinə, ağrısına kar-kordur, hər kəs tənhadır. Çexovun əksər personajı küçədə qol götürüb içindəki havaya oynayan sinir xəstəsinə bənzəyir, ona gülməmək də çətin, acımamaq da çətindir.

***

"Albalı bağı" pyesi dörd pərdədən ibarətdir. Birinci pərdədə bağın, bütövlükdə mülkün yiyəsi Lyubov Andreyevna Ranevskaya beş illik ayrılıqdan sonra Fransadan vətəninə, evinə qayıdır. Bu müddətdə dəbdəbəli Paris həyatı, yedəyində özüylə daşıdığı müftəxor, fırıldaqçı məşuqu bu sadəlövh, ürəyiyumşaq, səxavətli qadını iflasa uğradıb. Tək övladı, qəlbi yenicə pardaqlanan, romantik arzuların qanadlarında süzən on yeddi yaşlı qızı Anya da anasıyla birlikdə baba yurduna dönüb. Ana-bala da, onları doğma yurdda qarşılayanlar da çox xoşbəxt görünürlər, hərçənd bu xoşbəxtliyin tərkibindəki kədər elementləri adi gözlə də seçilir.

Bu beş il ərzində mülkü Ranevskayanın bir vaxt övladlığa götürdüyü iyirmi dörd yaşlı Varya - ciddi, imanlı, ağıllı, təsərrüfatcıl qız idarə eləyib. Söz gəzir ki, tacir Lopaxin onunla evlənmək istəyir; bu istək Varyanın da ürəyincədir, hər ikisi işgüzar, zəhmətkeş olan bu adamlar bir-birinə son dərəcə uyğun tiplərdir, onların birgəliyi, şübhəsiz, hər ikisinə böyük uğur gətirər, ancaq Lopaxin nədənsə qıza təklifdə bulunmağa tələsmir, onu gözlədən nəsə var.

Lyubov Andreyevnanın əlli bir yaşlı qardaşı Leonid Andreyeviç Qayev fikri dağınıq, xəyalı keçmişdə dolaşan, kəlməbaşı səy-səy danışan, heç bir praktiki işdə əli olmayan, nitqində tez-tez bilyard terminləri işlədən pəjmürdəhal qoca subaydır. Qayevin bir insan tipi kimi özünün tam tərsi olan savadsız mujik oğlu Lopaxini görməyə gözü yoxdur, onu kobud, sırtıq adam sayır, ona üstdən-aşağı baxır. Bacısı qızları, elə bacısı özü də tez-tez ondan yersiz danışmamağı, dilinə kilid vurmağı xahiş eləyirlər, o da hər dəfəsində onlara söz verir, di gəl, çox keçməmiş verdiyi sözü unudur.

Yermolay Alekseyeviç Lopaxin fərasətli tacir, bacarıqlı iş adamıdır. Babası təhkimli kəndli olub, atası xırda dükan işlədib. Yermolay ata-babasından çox-çox irəli gedib. O, keçmişini danmır, əksinə, bunu tez-tez yada salır. Bisavad olduğunu dilə gətirməkdən də utanmır, açıq deyir ki, hərdən əlinə kitab götürüb oxuyur, amma oxuduğundan heç nə anlamır. Lopaxin yaxşı xatırlayır ki, kobud, əyyaş atası onu döyüb ağzının-burnunun qanını bir-birinə qatanda mərhəmətli Lyubov Andreyevna on beş yaşlı mujik balasını ağaların istifadə elədiyi əlüzyuyana aparıb onun üz-gözünü necə qayğıkeşliklə yumuşdu. Onda xanımın iyirmi yaşı ancaq olarmış. O zamandan Lopaxinin ürəyində Lyubov Andreyevnaya qarşı güclü bir minnətdarlıq duyğusu, çox güman, həm də gizli sevgi baş qaldırıb. Hər nədirsə, mujik oğlu keçmiş xanımına dərin rəğbət bəsləyir, onu çətin vəziyyətdən çıxarmağa çalışır. Bəlkə də bununla özünü onun yanında təsdiqləmək, hər zaman aşağıdan-yuxarı baxdığı xanımına özünü sevdirmək istəyir.

***

Pyotr Sergeyeviç Trofimovu ömürlük tələbə adlandırırlar. Otuz yaşının tamamlanmasına az qalıb, ancaq Petya hələ də təhsilini başa vura bilməyib, yəqin ki, tələbə iğtişaşlarında iştirakına görə iki dəfə universitetdən qovulub. Pyotr Trofimov vaxtilə Ranevskayanın, atasının ölümündən bir müddət sonra çayda boğulmuş yeddi yaşlı oğluna dərs deyib. Petya dürüst, gözütox, ölkəsinin, xalqının gələcəyini daim düşünən xəyalpərəst oğlandır. Anyaya aşiq olsa da, bunu boynuna almaq istəmir, deyir ki, onların münasibəti sevgidən ucadır. Bax bu "sevgidən uca" nə deməkdir, bilinmir. İrəlidə buna aydınlıq gətirməyə çalışacağıq.

Şarlotta İvanovna Anyanın tərbiyəçisi, illərdən bəri Ranevskayanın qoltuğunda yaşayan başsız qadındır. Deyir ki, bu dünyada heç kimi yoxdur, düzəməlli sənədi olmadığına görə yaşını da dəqiq bilmir. O, heç hansı millətə mənsub olduğunu da bilmir, onu övladlığa götürmüş valideynləri səyyar sirk artistləri olublar. Onların ölümündən sonra Şarlottanı bir alman xanım saxlayıb. Ata-anasının nikah bağlayıb-bağlamadığını, yəni bu dünyadakı mövcudluğunun qanuni olub-olmadığını da bilmir. Nə qohumu var, nə doğması, nə əqrəbası. Bir sözlə, qadın xaosun qoynunda məqsədsiz, məramsız, hədəfsiz, istiqamətsiz fırlanır.

Boris Simeonov-Pişik daim kredit faizlərini ödəmək üçün ondan-bundan borc alan (ancaq sonra da qaytaran) qonşu mülkədardır. Hər dəfə ipi üzülməkdə olanda onun bəxti gətirir - birində torpağından dəmir yol keçdiyinə görə hökumət ona kompensasiya ödəyir, birində də ingilislər onun mülkündə ağ gilə bənzər qiymətli material tapırlar.

Kontorçu Semyon Panteleyeviç Yepixodov isə bəxtindən yarımayan, hər addımda xırdaca bir qəzaya, cürbəcür gülünc hallara düşən uğursuz, mənhus taleli adamdır. Fələyin onu vurmağa müdam hazır olduğunu bildiyinə görə cibində dolu tapança gəzdirir, onun intiharının çaxmağı çəkilidir. Qulluqçu Dunyaşadan xoşu gəlsə də, xanımının böyründə Parisdən qayıtmış sırtıq lakey Yaşa araya girir, bundan sonra hərdəmxəyal Dunyaşa Yepixodovdan soyuyub Yaşanın üstündə gətirdiyi Paris havasının ətrindən məst olur. Yepixodov deyir ki, hər səhər yuxudan oyananda yaxasına nəhəng bir hörümçəyin qonduğunu görür. Heç on il keçməyəcək, həmin bu Yepixodov Kafkanın "Çevrilmə"sində Qreqor Zamza adıyla zühur eləyəcək.

Səksən yeddi yaşlı qoca lakey Firs Ranevskayanın mərhum ata-babasının belə dünyaya gəlişini xatırlayır. Bu ailənin neçə nəsli onun əlində böyüyüb. Vaxtilə onu evləndirib ayırmaq istəsələr də, razılaşmayıb, ağalıq evində qulluq göstərməyi hər şeydən üstün tutub. Təsadüfi deyil ki, Firs təhkimçilik hüququnun ləğvinə də sadə xalqın fəlakəti kimi baxır. O, bir zaman albalı bağından necə nəf götürüldüyünü, qurudulan, turşuya qoyulan, mürəbbəsi bişirilən gilənarın yaxşı pula getdiyini həsrətlə xatırlayır. İndi isə bu işləri görən yoxdur, köhnə üsullar büsbütün unudulub. Qoca lakey xəstə, düşgün canıyla əlli bir yaşlı Qayevi uşaq kimi otarır, bu mənasız adamın geyinib-kecinməsinin, yeyib-yatmasının qayğısıyla yaşayır.

***

Elə birinci pərdədəcə Lopaxin ağalara elan eləyir ki, avqustun 22-də albalı bağı borca görə hərraca çıxarılacaq.

İndisə hələ may ayıdır, gilənar ağacları təzəlikcə çiçək açıb, bağ cənnətə bənzəyir. Albalı bağı həqiqətən bu evin sahibləri üçün cənnət bağıdır, bir o bağ, bir də divarları arasında böyüdükləri bu ev onların xoşbəxt, qayğısız keçmişinin rəmzidir. Albalı çiçəklərinin fonunda Ranevskayanın gözünə anasının ruhu görünür. Qayev isə bir zaman uşaq otağının pəncərəsi qabağında oturub, kilsəyə gedən atasını gözüylə necə izlədiyini xatırlayır. Belə-belə xatirələr bacı-qardaş üçün olduqca əzizdir, onlar keçmişlə nəfəs alırlar. Hətta Qayev riqqətə gəlib evdəki yüzillik kitab dolabının şəninə təmtəraqlı bir nitq söyləyir, onların bilik, zəka mənbəyi olan kitabları qoynunda bəsləyib qoruyan dolabı vəsf eləyir.

Bacı da, qardaş da uşaq kimidir (təsadüfi deyil ki, birinci səhnə uşaq otağında vaqe olur), onların praktiki işlərdə, təsərrüfatda, alverdə qətiyyən əlləri yoxdur. Pulu təyinatı üzrə xərcləməyi bacarmırlar, gəlirlərini-çıxarlarını bilmirlər. Evdəki qulluqçuların aclıq çəkdiyi bir vaxtda Lyubov Andreyevna yoldan keçən bir əyyaşa qızıl pul bağışlayır. Varya bunu onun üzünə vuranda qadın nöqsanını boynuna alır, ancaq yenə özünə güc gələ bilmir.

Anya bacılığına anasının Parisdə nələr çəkdiyini, mülkü satıb bina evinə köçməyə məcbur olduqlarını, ehtiyac içində yaşadıqlarını danışır. Getdikcə aydın olur ki, yüngülbeyin, sadədil Ranevskayanın vurulduğu fırıldaqçı əclaf qadını yağı malı kimi talayıb, qadın nəyi varsa ona qurban verib. Üstəlik, Lyubov Andreyevna düz üç il sərasər hansısa xəstəliyə mübtəla olmuş məşuqunun qulluğunda durub, onun həm xərclərini, həm də nazını çəkib. Sağalandan sonra yaramaz məşuq sevgilisinin var-yoxunu silib-süpürüb aradan çıxıb. Biçarə qadın ata yurduna qayıtmağa məcbur qalıb.

İndi yenə o fırıldaqçı teleqramı teleqram dalınca göndərir - görünür, yenə dara düşüb, arxayındır ki, ürəyiyumşaq qadın onu bu dəfə də bağışlayacaq. Ranevskaya birinci pərdədə o teleqramları oxumamış cırıb atır; ikincidə eləcə çantasında saxlayır; üçüncüdə açıb oxuyur; dördüncüdə isə...



**F.Uğurlu**

**davamı növbəti sayımızda**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Mavi planet...

*Yeganə BAYRAMOVA*




Adətən Yerin ikinci adını “mavi planet” adlandırırlar. Əslində, bu ad təsadüfən yaranmayıb. Belə ki, ilk kosmonavtlar Yeri kosmosdan görəndə, planetimiz onların qarşısına məhz mavi rəngdə çıxmışdı. Planetimizin nə üçün yaşıl deyil, mavi görünməyinə gəlincə, buna səbəb Yer səthinin 3/4 hissəsinin Dünya okeanının mavi suları ilə əhatə edilməsidir.

Nəfəs aldığımız oksigenin çoxunu okeanlar istehsal edir. Okeanlar, həmçinin yağış və quraqlığı tənzimləyir, qlobal iqlim nəzarətçisidir, karbon dövranını və buna görə yerdəki istiliyi tarazlıqda saxlayır. Cəmi dörd okean var: Sakit Okean, Atlantik Okeanı, Hind Okeanı və Şimal Buzlu Okeanı. Dünya okeanında su qatının orta dərinliyi 3700 metrdir. Ən dərin nöqtə Marian çökəkliyində yerləşir.

## Ən böyük okean

Bütün dörd okeanın ən böyüyü olan Sakit Okean öz adını Magellanın rəhbərlik etdiyi dəniz səyyahları onu keçən zaman inanılmaz dərəcədə sakit olduğu səbəbindən alıb. Sakit Okeanın digər adı - Böyük Okeandır. O, həqiqətən də nəhəngdir - Dünya okeanı sularının 1/2 hissəsi onun payına düşür, Sakit Okean Yer səthinin 2/3 hissəsini tutur.

Sakit Okeanın suları son dərəcə təmiz və şəffafdır, əksər hallarda tünd-göy, bəzən isə yaşıl rəngə çalır. Suyunun duzluluq dərəcəsi ortadır. Bu okean çox vaxt sakitdir, üzərindən mülayim küləklər əsir. Burada demək olar ki, qasırğa baş vermir. Sakit okean üzərində hər zaman təmiz ulduzlu səma görünür.

## Mübahisəli iddialar...

Atlantik okeanı - böyüklüyünə görə Sakit Okeandan sonra ikinci yerdə gəlir. Onun adının mənşəyi dünya alimləri arasında hələ də mübahisə obyektidir. Versiyalardan birinə görə, Atlantik okeanının adı Yunan mifologiyasının nümayəndəsi titan Atlantın şərəfinə qoyulub. İkinci versiyanın tərəfdarları isə iddia edirlər ki, o öz adına görə Afrikada yerləşən Atlas dağlarına borcludur. Ən “gənc” - üçüncü versiyaya görə, Atlantik okeanı itən sirli Atlantida materikinin şərəfinə belə adlandırılıb.

Atlantik okeanında suların duzluluğu digər okeanlardan yüksəkdir. Flora və faunası zəngindir, alimlər burada hələ də elmə məlum olmayan nümunələr aşkarlayırlar. Onun soyuq hissəsində balina və kürəkayaqlılar kimi fauna nümayəndələri yaşayır. İsti sularında isə kaşalot və dəniz pişiklərini görmək olar.

## Bu okeana az çay axır

Çox sayda nadir flora və fauna növlərinin yaşadığı Hind okeanı böyüklüyünə görə üçüncü yerdə qərarlaşıb. Tədqiqatçıların fikrincə, burada dəniz səyahətləri təxminən 6 min il bundan öncə başlayıb. Hind okeanının ilk dəniz səyyahları olan ərəblər buranın ilk xəritəsini də cızıblar. Onu sonradan Vasko da Qama, Ceyms Kuk da tədqiq edib.

Hind okeanına az çay axdığı üçün suları təmiz, şəffaf və inanılmaz dərəcədə gözəldir, bəzən tünd-mavi, bəzən isə yaşıl rəngə çalır.

## 16-cı əsrdən tədqiq olunan okean

Ən kiçik, ən soyuq və Dünya okeanının bütün beş hissəsindən ən az tədqiq olunan Şimal buzlu okeanı Arktikada yerləşir. Okean yalnız XVI əsrdən - dəniz səyyahları zəngin şərq ölkələrinə qısa yol tapmaq istədikləri vaxtdan tədqiq olunur. Onun orta dərinliyi 1225 metr, maksimal dərinliyi isə 5527 metrdir.

Şimal buzlu okeanının suları balıqla, torpaq qatları isə faydalı yataqlarla zəngindir. Burada suiti yaşayır, sahillərində quşlar səs-küylü “quş bazarına” yığışır. Sularının səthində üzən buzlar və aysberqlər bu okeanın xarakterik əlamətidir.

## Beşinci okean da var?

2000-ci ildə alimlər Dünya okeanının beşinci hissəsinin də mövcud olduğunu isbat etməyə müvəffəq olublar. O, Cənub okeanı adlanır və Şimal buzlu okeanından başqa bütün okeanların Antarktida sahillərini yuyan cənub hissələrini özündə birləşdirir. Bu, Dünya okeanının ən gözlənilməz hissələrindən biridir. Cənub okeanı üçün dəyişkən hava şəraiti, güclü küləklər, siklonlar xarakterikdir.

## Bu okeanda qeyri-adi hadisə olacaq...

Bu yaxınlarda ABŞ-ın meteoroloji agentliyi olan “Noaa” xəbərdarlıq etmişdi ki, bu il Atlantik okeanında 3-cü dərəcəli və ya daha çox intensivlikdə yeddi böyük qasırğa baş verə bilər. Qeyd edilib ki, bu, normal rəqəmdən iki dəfə çoxdur.

Normalda bir mövsümdə üç böyük qasırğa olur. Lakin iyun-noyabr aylarında 13 qasırğanın olacağı proqnozlaşdırılır. Bunun da müxtəlif səbəbləri var: dəniz səthinin temperaturunun istiləşməsi və qlobal hava şəraiti.

Yeri gəlmişkən, 8 iyun Ümumdünya Okeanlar Günüdür. Okeanoloqlar bu günü 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda keçirilən “Ətraf mühit və inkişaf” konfransında elan ediblər.



# “Nar” Azərbaycanın bölgələrində İKT peşəkarlarını hazırlayır

Sərfəli qiymətləri və sosial layihələri ilə bölgələrə xüsusi diqqət göstərən “Nar” bu dəfə Gəncədə yerləşən Azərbaycan Texnologiya Universitetində yüksək səviyyəli görüş keçirərək universitetlə ilk əməkdaşlıq layihəsinə start verib.

Uzunmüddətli əməkdaşlığı nəzərdə tutan anlaşma memorandumu çərçivəsində reallaşan ilk layihə “Nar”ın texniki heyəti tərəfindən texniki ixtisaslarda təhsil alan tələbələr üçün hazırlanan və keçirilən “Mobil rabitənin əsasları” təlimi olub. Qabaqcıl mobil texnologiyalara hakim olan sənaye mütəxəssislərinin hazırlanması və onların ixtisasların uyğun karyera qurması məqsədilə keçirilən təlim tələbələrə öz nəzəri biliklərini praktiki təcrübə ilə zənginləşdirməyə imkan verir.

Qeyd edək ki, “Nar” və Azərbaycan Texnologiya Universiteti bu ilin fevral ayında Anlaşma Memorandumu imzalayaraq telekom sahəsinin peşəkarlarını hazırlamaq istiqamətində əməkdaşlığa başlayıb. Əməkdaşlığın əsas məqsədi Azərbaycanın regionlarında da rabitə sənayesi və akademik təhsil arasında körpü quraraq ölkənin rabitə peşəkarlarını hazırlamaqdır.

“Nar”ın həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## İdman

# Azərbaycanın veteran cüdoçusu 10 qat Avropa çempionu olub



Azərbaycanın veteran cüdoçuları Bosniya və Herseqovinanın paytaxtı Sarayevoda keçirilən Avropa çempionatının ilk günündə 1 qızıl və 2 bürünc medal qazanıblar.

Azərbaycan Cüdo Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, M8 yaş kateqoriyası üzrə 90 kiloqram çəki dərəcəsində çıxış edən Fərhad Rəcəbli bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Bu qələbə ilə F.Rəcəbli usta cüdoçular arasında 10 qat Avropa çempionu olub.

90 kiloqram çəkidə Nazim Əliyev (M7) və 66 kiloqramda Vahid Azərpur (M8) bürünc mükafata sahib çıxıb.

100 kiloqramda isə Qabil Qasımov (M5) 5-ci yeri tutub.

Qeyd edək ki, iyunun 9-na kimi davam edəcək qitə birinciliyində 35 ölkədən 800 cüdoçu mübarizə aparır.

# Basketbol millimizin Ermənistanla oyununun vaxtı açıqlanıb



Azərbaycanın kişilərdən ibarət 3x3 basketbol millisinin Avropa Kubokunda Ermənistanla keçirəcəyi oyununun vaxtı bəlli olub.

İyunun 8-də Kosovonun paytaxtı Priştina şəhərində baş tutacaq görüş Bakı vaxtı ilə saat 11:30-da start götürəcək.

Komandamız eyni gündə daha üç matç keçirəcək. Yığma müvafiq olaraq, Kosovo, Kipr və Albaniya ilə qarşılaşacaq.

“Ermənistan millisi ilk dəfə bu yarışda iştirak edəcək. Ona görə rəqib haqqında geniş məlumata sahib deyilik. Oyunlarını analiz etmək üçün imkanımız olmayıb”.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Azərbaycanın kişilərdən ibarət 3x3 basketbol millisinin üzvü Endər Poladxanlı Kosovonun ev sahibliyi etdiyi Avropa Kubokunun təsnifat mərhələsində Ermənistana qarşı keçirəcəkləri oyun barədə danışarkən deyib.

O bildirib ki, meydana rahat çıxacaqları halda uğurlu nəticə qazanacaqlar: “Əlbəttə, Ermənistanla oyun digərlərindən fərqli olacaq. Bu görüşə yüksək motivasiya ilə çıxacağıq. Meydanda aqressiv mübarizə aparmalıyıq. Bütün hazırlıqlarımızı görmüşük. Sabah qazanacağımız mümkün qələbə bizə əlavə güc verəcək. Rəqibi tanımasaq da, onları məğlub edəcəyimizi düşünürəm. Əsas odur ki, start fitindən həyəcanımızı boğa bilək. Qalibiyyət psixoloji cəhətdən qarşıdakı görüşlərə daha yaxşı köklənməyimizə şərait yaradacaq”.

26 yaşlı oyunçu Kosovo və Kipr yığmalarının qrupun favoriti hesab olunduqlarını söyləyib: “Kosovo seçməsinin heyətində dəyişikliklər olub. Lakin biz heç bir komandadan çəkinmirik. İki il öncə turniri lider kimi tamamlamağı bacarmışdıq. Yenidən qalib gələrək Avropa Kubokunun final mərhələsində oynamaq istəyirik”.

# Azərbaycan paraüzgüçüsü Dünya Seriyasında finala yüksəlib




Azərbaycan paraüzgüçüsü Əli Vəliyev Fransanın Limoj şəhərində gənclər arasında təşkil olunan Dünya Seriyasında finala yüksəlib.

Milli Olimpiya Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, idmançı 100 metr məsafəyə sərbəst üsulla üzmə yarışında həlledici mərhələyə vəsiqə qazanıb.

O, bu nəticə ilə şəxsi rekordunu yeniləyib (1.02.56).

Dünən start götürən Dünya Paraüzgüçülük Seriyasına iyunun 9-da yekun vurulacaq.




# “akart” Mərkəzi Bankdan lisenziya alan ilk fintex həlli oldu

Azərbaycan Respublikasının Mərkəzi Bankı “A-Solutions” MMC-yə elektron pul təşkilatı kimi fəaliyyət göstərməsi üçün lisenziya təqdim edib. Qeyd etmək lazımdır ki, təşkilatın əsas səhmdarı qismində “Azercell Telekom” MMC çıxış edir. Beləliklə də, ölkənin telekommunikasiya sektorunda ilk dəfə olaraq özündə həm bank əməliyyatlarını, həm də mobil rabitə imkanlarını birləşdirən “akart” bu lisenziyanı alan birinci fintex həlli oldu.

Qeyd edək ki, müştərilərə nağdsız hesablaşma və ödənişləri daha rahat şəkildə yerinə yetirməyə imkan yaradan bu unikal məhsul ilə kartdan karta sürətli pul köçürmələrini, kommunal ödənişləri və digər əməliyyatları yerinə yetirmək mümkündür. Eyni zamanda, “akart”ın “Apple” və “Google Pay” vasitəsilə təmassız ödəniş, ayda 100 AZN-dək keşbek və 10 GB-dək bonus qazanma imkanı, genişlənən partnyor şəbəkəsi və s. kimi üstünlükləri var.

Beləliklə, virtual kart əhalinin bank xidmətlərinə çıxışı aşağı olan və ya ümumiyyətlə, olmayan qisminə onlayn bankçılıq üçün rahat və sərfəli həll təqdim edir. Həllin məqsədi “akart” vasitəsilə ölkə əhalisinə nağdsız ödəniş vərdişlərini təşviq etməkdir. Bununla da virtual kart Azərbaycanda maliyyə inklüzivliyinin gücləndirilməsinə və rəqəmsal ekosistemin inkişafına töhfəsini verəcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5694**
**Sifariş: 1254**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli